# RAMAZAN BAYRAMINIZ MÜBARƏK!


*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının
Elm və Təhsil Nazirliyinin orqanı

21 aprel 2023-cü il
№15 (9023)

www.muallim.edu.az
muallim@edu.gov.az


## Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən xoş arzu və diləklərimi yetirirəm.

Bəşər övladını əxlaqi paklığa, humanizmə, birlik və bərabərliyə dəvət edən, insanların ruhunu və mənəviyyatını saflaşdıran mübarək Ramazan ayında müsəlmanlar Uca Yaradan qarşısında öz borcunu ləyaqətlə yerinə yetirmək fürsəti əldə edir, mənəvi kamilliyin və savab əməllərin sevincini yaşayırlar.

İslam sivilizasiyasının tarixi-mədəni mərkəzlərindən olan Azərbaycanda Ramazan bayramı hər il böyük təntənə ilə keçirilir, xalqımızın və dövlətimizin firavanlığı, əmin-amanlığı üçün dualar edilir, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman Vətən övladlarının xatirəsi dərin ehtiramla yad olunur.

Əziz bacı və qardaşlarım!

Cəmiyyətimizdə vəhdəti və həmrəyliyi daha da gücləndirən, xeyirxahlığın, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevrilən on bir ayın sultanı Ramazan ayı başa çatır. Bu mübarək bayram münasibətilə bir daha hər birinizə və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Allah orucunuzu, dua və niyyətlərinizi qəbul etsin.

Ramazan bayramınız mübarək olsun!

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 19 aprel 2023-cü il*



## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Neftçalada yeni inşa olunan məktəbin açılışında iştirak ediblər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 18-də Heydər Əliyev Fondu tərəfindən Neftçala rayonunda inşa olunan 420 şagird yerlik Bankə qəsəbə 2 saylı tam orta məktəbin açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və birinci xanıma məktəbdə yaradılan şərait barədə məlumat verildi.

Bildirildi ki, məktəbin binası 1960-cı ildə inşa olunub. Ötən müddət ərzində istifadəyə yararsız vəziyyətə düşdüyünə görə bu təhsil ocağı üçün yeni bina tikilib.

Beş korpusdan ibarət üçmərtəbəli məktəb binası zəruri mebel və avadanlıqlar, fənn kabinetləri və laboratoriyalar əyani vəsaitlərlə tam təchiz edilib.

Məktəb binasında 18 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi təlim, tibb, əmək təlimi otaqları, kitabxana, yeməkxana, akt və idman zalları, həmçinin açıq idman meydançası var.

Məktəbin həyətyanı sahəsi abadlaşdırılıb, yaşıllaşdırma işləri aparılıb.





### BU SAYIMIZDA

#### “Azərbaycanda elmin populyarlaşdırılması modeli”



Aprelin 17-də Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) “Azərbaycanda elmin populyarlaşdırılması modeli” adlı tədbir keçirilib. Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti İsa Həbibbəyli, UNEC-in rektoru Ədalət Muradov, millət vəkilləri, ölkənin tanınmış elm, təhsil, mətbuat və ictimaiyyət nümayəndələri iştirak ediblər. Giriş nitqi ilə çıxış edən UNEC-in rektoru Ədalət Muradov aparılacaq müzakirələrin gənc nəslin elmə marağının artırılmasına və elmə yeni mütəxəssislərin cəlb edilməsinə təkan verəcəyini bildirib.

səh.2

#### “Elmdə qadınlar”



Aprelin 18-də Naxçıvan Dövlət Milli Dram Teatrında akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100 illiyinə həsr olunmuş “Elmdə qadınlar” adlı konfrans keçirilib. Elm və təhsil nazirinin müavini Firudin Qurbanov bildirib ki, Zərifə xanım Əliyeva müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı olmaqla yanaşı, sədaqətli dostu və etibarlı silahdaşı olub. Azərbaycan oftalmologiya elmini bütün dünyada tanıdan Zərifə Əliyevanın açdığı yol ildən-ilə genişlənir, zəngin irsi, pedaqoji fəaliyyəti araşdırılır, öyrənilir və tədqiqat əsərlərinin mövzusuna çevrilir.

səh.4

#### Planetimizi qoruyaq



Dünyamızı dəyişmək üçün ən güclü və təsirli vasitə təhsildir. Təhsil vasitəsilə planetimizi daha təmiz və sağlıqlı edə, dayanıqlı inkişafa nail ola və Yer əmanətini gələcək nəsillərə ötürə bilərik. Şagirdlərimizdə ətraf mühitə qarşı şüurlu münasibət formalaşdırmaq milli kurikulumun və dövlətimizin təhsil siyasətinin prioritet məsələlərindəndir. Ekoloji problemlər elə ciddidir ki, hər bir cəmiyyət üzvünün məsuliyyətli davranmasını tələb edir. Ekoloji problemlərə düzgün yanaşma cəmiyyətimizin köklü maariflənməsini tələb edir. Davamlı gələcək naminə hamımız birləşərək bu problemlərin aradan qaldırılmasına yardım etməliyik.

səh.12

## Yüksək nəticə, parlaq qələbə

### 12-ci Avropa Qızlar Riyaziyyat Olimpiadasında uğur qazanan məktəblilərimiz

Xəbər verildiyi kimi, 13-19 aprel tarixlərində Sloveniyanın Portoroz şəhərində 12-ci Avropa Qızlar Riyaziyyat Olimpiadası (EGMO) keçirilib. 57 ölkədən 213 məktəblinin iştirak etdiyi olimpiadada ölkəmiz 4 məktəbli ilə təmsil olunub. Riyaziyyat fənnini əhatə edən olimpiadada şagirdlərimiz uğurla çıxış edərək 1 qızıl, 1 bürünc medal və 2 həvəsləndirici mükafat qazanıblar. Azərbaycan komandasının əldə etdiyi qızıl medalı Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin XI sinif şagirdi Fidan Qarayeva, bürünc medalı Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin X sinif şagirdi Sevinc Mahmudova, “Həvəsləndirici mükafat” sertifikatlarını isə həmin liseyin XI sinif şagirdləri Fidan Cəfərli və Səfurə Ramizqızı əldə ediblər.

⇨Ardı səh.6

## “Elmi işlər üçün can yandırmalıyıq”

### “Təşəbbüskarlıq təkcə alimlər üçün deyil, hamımız üçün ən vacib hərəkətverici qüvvədir”

Almaniyanın Maks-Plank İnstitutunun idarəedici direktoru, Köln Universitetinin üzvi kimya professoru Benjamin List 2021-ci ildə “Asimmetrik orqanokatalizin inkişafına görə” Nobel mükafatına layiq görülüb. Alim Nobel Mükafatları Komitəsinin rəsmi *nobelprize.org* saytına müsahibəsində həyatın mənası və müxtəlifliyin elmdə nə qədər vacib olduğu, elmə marağı, elmin gələcəyi, həmçinin həyatının ən gözəl anlarından biri - Nobel mükafatına layiq görülməsi xəbərini necə aldığı barədə danışıb. B.Listin müsahibəsi yaşadığı heyrətamiz həyatın anlarını göstərən maraqlı nümunələrlə zəngindir.

⇨Ardı səh.9

# “Azərbaycanda elmin populyarlaşdırılması modeli”







## Mövzu ətrafında geniş müzakirə aparılıb

Aprelin 17-də Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) “Azərbaycanda elmin populyarlaşdırılması modeli” adlı tədbir keçirilib.

Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti İsa Həbibbəyli, UNEC-in rektoru Ədalət Muradov, millət vəkilləri, ölkənin tanınmış elm, təhsil, mətbuat və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Giriş nitqi ilə çıxış edən UNEC-in rektoru Ədalət Muradov aparılacaq müzakirələrin gənc nəslin elmə marağının artırılmasına və elmə yeni mütəxəssislərin cəlb edilməsinə təkan verəcəyini bildirib. Eyni zamanda elmin populyarlaşdırılmasının cəmiyyətin ümumi məlumatlılıq səviyyəsini artıracağını deyib.

Elm və təhsil naziri Emin Əmrullayev elmin populyarlaşdırılması istiqamətində mövcud problemlər və həlli yollarından danışıb. Nazir elmə marağın orta məktəbdən formalaşdırılmasının, ölkədə ixtisaslaşmış institutların fəaliyyətində səmərəliliyin artırılmasının vacibliyini önə çəkib, cəmiyyətin elmə və alimə verdiyi dəyər, elmi etika, elmi adların verilməsi məsələlərinə toxunub.

AMEA-nın prezidenti İsa Həbibbəyli çıxışında mətbuat və sosial şəbəkələrin elmin populyarlaşdırılmasındakı rolundan söz açıb. Bu istiqamətdə mənfi tendensiyaların mövcudluğunu və elmlə bağlı maarifləndirmə işlərinin ürəkaçan olmadığını bildirən İsa Həbibbəyli Azərbaycan elminin dünya reytinqlərindəki mövqeyinə də toxunub.

Elm və Təhsil Nazirliyinin Neft-Kimya Prosesləri İnstitutunun baş direktoru Vaqif Abbasov görkəmli alimlərin elm sahəsindəki rolundan söz açıb. Akademik populyar dərsliklərin çap olunmasının, xarici ölkələrdə yaşayan alimlərlə əlaqələrin genişləndirilməsinin vacibliyini vurğulayıb.

Daha sonra Almaniyanın Münhen Texniki Universitetinin professoru Məsud Əfəndiyev Azərbaycanda elmin populyarlaşdırılması modeli mövzusunda təqdimatla çıxış edib.

Millət vəkili, UNEC-in Elmin Populyarlaşdırılması Mərkəzinin rəhbəri Etibar Əliyev isə mərkəzin fəaliyyət istiqamətləri barədə məlumat verib.

Tədbirin bir sıra iştirakçıları da çıxış edərək elmin populyarlaşdırılması ilə bağlı fikirlərini bölüşüb, təkliflər səsləndiriblər. Müzakirələr zamanı elmi nəticələrin cəmiyyətə açıqlanılması, elmi jurnalistikanın yaradılması və Azərbaycan elminin dünyaya inteqrasiyasının əhəmiyyətindən söz açılıb, bu istiqamətdə mətbuatın rolu vurğulanıb.

## Günəş enerjisi ilə bağlı kadr potensialı gücləndirilir

Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) Almaniyanın “Green Life Engineering” şirkətinin və mühəndis sistemləri və qurğuları kafedrasının birgə təşkilatçılığı ilə silsilə seminarlar davam edir.

“Müasir inşaatda günəş enerjisindən istifadə məsələləri” mövzusunda keçirilən bu dəfəki seminarda universitetin mühəndis sistemləri və qurğuları kafedrasının professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

Kafedranın müdiri professor Nurməmməd Məmmədov çıxış edərək seminarın mövzusunun aktuallığına diqqət çəkib. Qeyd edib ki, günəş enerjisi təbii və ekoloji cəhətdən təmiz, bərpa olunan enerji mənbəyidir və ölkəmizdə hazırda bu enerji resursundan faydalı şəkildə istifadə üçün önəmli addımlar atılır. Kafedra müdiri əlavə edib ki, Azərbaycanda günəş enerjisi ilə bağlı layihələrin yüksək ixtisaslı mühəndis kadrlarla təmin edilməsi məqsədilə AzMİU-da geniş tədqiqat işləri aparılır və tədrisdə bu istiqamətdə önəmli yenilənmələr həyata keçirilir.

“Green Life Engineering” şirkətinin nümayəndəsi Nadir Mənsumov geniş məruzə ilə çıxış edib. Gələcək nəsillərin dayanaqlı enerji təminatı, həmçinin ətraf mühitin qorunması məqsədilə alternativ və bərpa olunan enerjiyə artan tələbatından danışıb. O, günəş, günəş enerjisindən istifadə, günəş panellərinin qurulmasının prinsipləri, enerjinin alınması və ondan istifadənin zəruriliyini qeyd edib. Bildirib ki, yer səthinə düşən günəş enerjisinin miqdarı bütün neft, təbii qaz, daş kömür və digər yanacaq ehtiyatlarından çoxdur.

Sonda seminar iştirakçılarının mövzu ilə bağlı sualları cavablandırılıb.

yüksəliş

## “Yüksəliş” müsabiqəsinin ümumi biliklər üzrə imtahanı keçirilib

“Yüksəliş” müsabiqəsinin onlayn mərhələsinin ümumi biliklər üzrə imtahanı keçirilib.

İştirakçıların onlayn formada qatıldıqları imtahanda 7806 namizəd iştirak edib. Suallar Azərbaycan və dünya ölkələri üzrə tarix, coğrafiya, ədəbiyyat və mədəniyyət, həmçinin hüquq və iqtisadiyyat sahələri, müasir trendlər olmaqla, 4 blok üzrə təqdim olunub. İmtahan üçün hər blok üzrə 25 dəqiqə olmaqla, ümumilikdə 2 saat vaxt ayrılıb. Ümumi biliklər üzrə imtahanı uğurla başa vuracaq iştirakçılar qabiliyyət imtahanında iştirak haqqı qazanacaqlar. Qabiliyyət üzrə onlayn mərhələnin sınaq imtahanı aprelin 30-da, əsas imtahan isə mayın 7-də keçiriləcək. Qabiliyyət imtahanında testlər abstrakt düşüncə, rəqəmsal və verbal məlumatlarla işləmək bacarığı olmaqla, 3 blok üzrə təqdim ediləcək.

“Yüksəliş” müsabiqəsinin 20 qalibini bir il ərzində idarəçi rəhbərlərdən — iri şirkətlərin top-menecerlərindən və dövlət orqanlarının rəhbərlərindən fərdi karyera məsləhətləri almaq imkanı, kadr ehtiyatı bankına daxil edilmə və 20 min manat dəyərində pul mükafatı gözləyir.

## BDU-da təkmilləşdirmə kursları

Strateji İnkişaf Planının fəaliyyət istiqamətlərinə uyğun olaraq tədrisdə keyfiyyətin artırılması, akademik heyətin potensialının üzə çıxarılması, yeni nəslin tədris və təlim proseslərinə cəlb olunması, onların qabaqcıl elmi-metodik üsulları mənimsəməsinə böyük diqqət yetirən Bakı Dövlət Universitetində təkmilləşdirmə kursları başlayıb.

Aprelin 17-dən mayın 26-dək universitetin 70-dən çox əməkdaşının bu kurslarda dinləyici qismində iştirakı nəzərdə tutulur.

Təlimlər “Pedaqogika və milli-mənəvi dəyərlərə əsaslanan müasir təlim metodları”, “Pedaqoji və tətbiqi psixologiya”, “İnformasiya və kommunikasiya texnologiyaları” istiqamətləri üzrə keçiriləcək. Kursun proqramına “Heydər Əliyevin siyasi portreti”, “Xalqımızın 44 günlük Vətən müharibəsindəki qələbəsi Azərbaycanın şanlı tarixidir”, “Təlim prosesində tələbələrdə yaradıcı təfəkkürün inkişaf etdirilməsi”, “Heydər Əliyev və Azərbaycanda gender inkişafı”, “Təlim texnologiyalarından istifadə metodikası”, “Ali məktəbdə interaktiv dərs modeli” kimi mövzular daxil edilib.

Təkmilləşdirmə kursları başa çatdıqdan sonra dinləyicilərə sertifikatlar veriləcək.

# Beynəlxalq təcrübənin öyrənilməsi önəmlidir





## Ali təhsil məkanında keyfiyyət üzrə standart və təlimatlar müzakirə edilib

Aprelin 17-də Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) təşkilatçılığı ilə Azərbaycanda “Keyfiyyət təminatı agentliklərinin fəaliyyətlərinin Avropa ali təhsil məkanında keyfiyyət üzrə standart və təlimatları” adlı kollegial məşvərət iclası keçirilib.

Ölkənin ali təhsil sistemində ilk dəfə təşkil edilən iclasa Avropa Ali Təhsil Məkanında Keyfiyyətin Təminatı üzrə Assosiasiyanın prezidenti Duqlas Bləkstok, Avropa Ali Təhsil Məkanında Keyfiyyətin Təminatı üzrə Reyestr Təşkilatının direktoru Kolin Tük qatılıb.

Açılış nitqi ilə çıxış edən TKTA-nın İdarə Heyətinin sədri Ülkər Səttarova xarici keyfiyyətin təminatı istiqamətində görülən işlər, əldə edilən nəticələr və gələcək planlar haqqında tədbir iştirakçılarını məlumatlandırıb.

Elm və təhsil naziri Emin Əmrullayev öz çıxışında xarici keyfiyyətin təminatı üzrə beynəlxalq standart və təcrübənin öyrənilməsinin önəmini vurğulayaraq Azərbaycan təhsil məkanının Avropa ali təhsil məkanına inteqrasiyası istiqamətində əldə edilmiş nəticələri və qarşıda duran məsələləri tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Tədbirin birinci günündə çıxışçılar ali təhsildə keyfiyyət təminatı, adıçəkilən istiqamətdə maraqlı tərəflərin iştirakı, Azərbaycanda ali təhsil və bu kimi digər məsələlərə toxunublar.

Qeyd edək ki, iki gün davam edən tədbir aprelin 18-də öz işini başa çatdırıb.

# Şansını qazan, ikili diplom al!

## BMU-İNHA ikili diplom proqramına növbəti tədris ili üçün sənəd qəbulu aparılacaq

5 iyun — 9 avqust 2023-cü il tarixlərində Bakı Mühəndislik Universiteti (BMU) və Koreyanın İNHA Universitetinin bakalavriat səviyyəsi üzrə beynəlxalq ikili diplom proqramına (İDP) növbəti tədris ili üçün onlayn qeydiyyat həyata keçiriləcək.

Beynəlxalq ikili diplom proqramına qəbul Dövlət İmtahan Mərkəzinin (DİM) keçiriləcək qəbul imtahanlarının (bakalavriat səviyyəsi üzrə) nəticələri və İNHA Universitetinin təşkil etdiyi daxili imtahan əsasında aparılır. BMU-İNHA İDP-də Azərbaycan Respublikasının vətəndaşı olan, 2023-cü ildə DİM imtahanlarından uğurla keçən 1-ci ixtisas qrupunun abituriyentləri (BMU-İNHA İDP-nin hər ixtisas üzrə müəyyən edilmiş müvafiq keçid balını toplamış namizədlər) iştirak edə bilərlər.

Bununla yanaşı, proqrama müraciət etmiş namizədlər BMU ilə İNHA Universitetinin birgə təşkil etdiyi və yazılı keçiriləcək riyaziyyat, fizika və ingilis dili üzrə daxili imtahandan da uğurla keçməlidirlər. Daxili imtahanda iştirak üçün namizədlər tələb olunan sənədləri 5 iyun 2023-cü il tarixindən aktiv olacaq “Onlayn anket forması”na yükləməlidirlər. Sənədlərin son qəbul tarixi 9 avqust saat 23:55-dir.

BMU-İNHA İDP çərçivəsində 12 avqust 2023-cü il tarixində həyata keçiriləcək daxili imtahanın nəticələri 17 avqust 2023-cü ildə elan ediləcək.

İngilis və Koreya dillərində 4 il müddətində həyata keçiriləcək ikili diplom proqramı informasiya texnologiyaları, inşaat mühəndisliyi, elektrik mühəndisliyi və elektronika mühəndisliyi ixtisaslarını əhatə edir. Proqramın 3 il müddətində BMU-da, 1 il müddətində isə İNHA Universitetində tədris olunması nəzərdə tutulur. Təhsil müddətinin sonunda tələbələrə təhsil aldıqları ixtisas üzrə həm BMU, həm də İNHA Universiteti tərəfindən bakalavriat səviyyəsi üzrə diplomlar təqdim ediləcək.

Təhsilalanların Koreyada 1 illik tam təhsil və 3 həftəlik yay məktəbində iştirak xərcləri, habelə təhsil haqqı, qeydiyyat, tədris materialları və elektron informasiya resurslarına çıxış xərcləri də “2019-2023 Dövlət Proqramı” tərəfindən qarşılanır. Proqram məzunlarının qazanacağı bilik və bacarıqlar qeyd olunan 4 ixtisas üzrə mühəndislik, tədqiqat, beynəlxalq təhsil, təhlil və inkişaf sahələrini əhatə edəcək.

Ətraflı məlumat elandan *(https://beu.edu.az/root_panel/upload/files/beu_edu_az/documents/BMU-%C4%B0NHA%20%C4%B0DP%202023%20-%20ELAN.pdf)* əldə oluna bilər.

Qeyd edək ki, 2023-2024-cü tədris ilində ikili diplom proqramına informasiya texnologiyaları ixtisası üzrə 35, elektronika mühəndisliyi ixtisası üzrə 35, elektrik mühəndisliyi ixtisası üzrə 28, inşaat mühəndisliyi ixtisası üzrə isə 25 nəfərin qəbulu nəzərdə tutulur.

# "Qədim mətnlər və klassik mənbələr erməni saxtakarlıq və uydurmalarını ifşa edir və ya əzəli Azərbaycan-türk torpaqları olan Zəngəzur həqiqətləri"

## Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü münasibətilə konfrans

Aprelin 20-də Əqli Mülkiyyət Agentliyinin təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində "Qədim mətnlər və klassik mənbələr erməni saxtakarlıq və uydurmalarını ifşa edir və ya əzəli Azərbaycan-türk torpaqları olan Zəngəzur həqiqətləri" adlı konfrans keçirilib. Konfrans 23 Aprel — Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü münasibətilə təşkil edilib.

Tədbiri giriş nitqi ilə açan Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov konfransın mövzusunun aktuallığından danışıb. Kamran İmanov çıxışında həmçinin əqli mülkiyyət məsələlərinə toxunub. Qeyd edib ki, Ümummilli Liderin uzaqgörənliyi nəticəsində yaradılan milli əqli mülkiyyət sistemi ölkə Prezidenti cənab İlham Əliyevin səyləri və dəstəyi nəticəsində uğurla inkişaf edir.

Konfransda elm və təhsil naziri Emin Əmrullayev, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva, Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli, Milli Məclisin deputatı Sabir Rüstəmxanlı, mədəniyyət nazirinin müavini Səadət Yusifova, Azərbaycan Respublikasının UNESCO üzrə Milli Komissiyasının baş katibi Seymur Fətəliyev, Azərbaycan Respublikası Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin Xarici media ilə iş sektorunun müdiri Fuad Axundov, həmçinin Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondundan Nuri Aksu çıxış ediblər.



Çıxışlarda erməni yalan və saxtakarlıqlarının ifşa edilməsində Əqli Mülkiyyət Agentliyinin fəaliyyəti xüsusilə vurğulanıb, konfransın mövzusunun aktuallığı qeyd edilib, eləcə də tədbirin elmi platforma olduğu diqqətə çatdırılıb.

Konfrans çərçivəsində həmçinin erməni saxtakarlığını ifşa edən "Tarixin izi ilə" silsiləsindən "Keçmişin böyük yalanları: Armeniya və Hayastan" televiziya filmi nümayiş etdirilib.

Konfransda professor Kamran İmanov və Tarix İnstitutunun baş direktoru Kərim Şükürovun mövzu ilə bağlı məruzələri də dinlənilib.

# Nazir müavini Naxçıvanda tələbələrlə görüşüb



**Hər bir ölkədə uğurlu gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən çox asılıdır**



Aprelin 18-də elm və təhsil nazirinin müavini Firudin Qurbanov Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Naxçıvan Dövlət Universitetinin tələbələri ilə görüş keçirib.

Görüşdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdir müavini Nigar Hacıyeva, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Aparat rəhbəri Rəşad Əlizadə və Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev iştirak ediblər.

Ölkəmizdə aparılan uğurlu gənclər siyasətindən söz açan elm və təhsil nazirinin müavini Firudin Qurbanov bildirib ki, bunun nəticəsi olaraq Azərbaycan gəncləri günümüzün müasir, inkişaf etmiş qüvvəsi kimi formalaşıb. Nazir müavininin sözlərinə görə, hər bir ölkədə uğurlu gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən çox asılıdır.

Firudin Qurbanov insan kapitalının formalaşmasında təhsilin, bilik və bacarıqların rolundan da danışıb. Karyera seçimi ilə bağlı tövsiyələrini çatdıran nazir müavini müasir texnologiyaların sürətlə inkişaf etdiyi dövrdə əmək bazarında yeni peşələrin yarandığını və ölkəmizdə kadr hazırlığının müasir dövrün çağırışları və əmək bazarının tələblərinə uyğun həyata keçirilməsinin vacibliyini diqqətə çatdırıb. Firudin Qurbanov bildirib ki, hər kəs seçim edərkən istedadını, hansı sahəyə marağının olduğunu, həmçinin müasir dövrün tələblərini nəzərə almalıdır.

Gənclərin vətənpərvər ruhda yetişməsinin nəticəsi olaraq 44 günlük Vətən müharibəsində qazanılan qələbəni diqqətə çatdıran Firudin Qurbanov əlavə edib ki, vətəndaşlıq mövqeyinin formalaşdırılması, vətənpərvərlik tərbiyəsi təhsil sisteminin qarşısında duran prioritet vəzifələrdəndir.

Sonra tələbələri maraqlandıran suallarla bağlı fikir mübadiləsi aparılıb.

Görüşün sonunda Firudin Qurbanov tələbələrə uğurlar arzulayıb.

# Tanınmış türk professoru ADPU-nun qonağı olub

Aprelin 15-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) "T-Network" təhsil işçilərinin təcrübə və kommunikasiya platforması və ADPU-nun təşkilatçılığı ilə "Təhsildə ənənəvi anlayışlara yeni baxış" mövzusunda beynəlxalq seminar keçirilib. Seminarda təhsil və elm ictimaiyyətinin nümayəndələri, Milli Məclisin deputatları, məktəb direktorları, ali və orta məktəb müəllimləri iştirak ediblər. ADPU-nun rektoru professor Cəfər Cəfərov seminarda çıxış edərək tədbirin əhəmiyyətindən söz açıb, XXI əsrin yeni çağırışlar əsri olduğunu diqqətə çatdırıb.

Rektor bildirib ki, xüsusən pedaqoji təhsildə günümüzün süni intellekt çağında daimi tədqiqatların aparılması və müasir yanaşmaların tətbiqi olduqca zəruridir.





Seminarda Türkiyə Respublikasının Bahçeşehir Universitetinin təhsil elmləri fakültəsinin dekanı, tanınmış türk professoru Hasan Şimşek ustad dərsi ilə çıxış edib. H.Şimşek təqdimatda 35 illik təhsil təcrübəsinə əsasən müxtəlif ölkə və regionların təhsil sisteminin quruluşunu müqayisəli təhlil edərək, hər bir sistemin üstün və problemli tərəflərini analiz edib, daha yaxşı təhsil üçün şəxsi araşdırmalarının nəticələrinə əsaslanan tezislərini diqqətə çatdırıb.

"T-Network" platformasının rəhbəri Cəfər Mənsiminin moderatorluğu ilə davam edən beynəlxalq seminar sual-cavab hissəsi ilə yekunlaşıb.

Beynəlxalq seminar əsnasında professor H.Şimşek ADPU-nun rektoru ilə görüşüb, Pedaqoji Universitetdə təhsil və təlim üçün yaradılan şəraitlə yaxından tanış olub, universitetin qonaq kitabına ürək sözlərini yazıb.

Məlumat üçün bildirək ki, Hasan Şimşek Təhsilin idarəolunması ixtisası üzrə Orta Doğu Texnik Universitetində (ODTU) bakalavr, ABŞ-ın Minnesota Universitetində magistratura və doktorantura təhsili alıb. ABŞ-dakı "Beynəlxalq Təhsil Platforması" tərəfindən elmi işi "İlin dissertasiyası" mükafatına layiq görülüb. Müəllimlik fəaliyyətinə ODTU-də başlayan H.Şimşek eyni universitetdə professorluğa qədər yüksəlib. ODTU-da təhsil fakültəsinin dekan müavini, təhsil elmləri kafedrasının rəhbəri, həmçinin Bahçeşehir Universitetində prorektor, İstanbul Kültür Universitetində təhsil fakültəsinin yaradıcı dekanı vəzifələrində çalışıb. Türkiyənin Milli Təhsil Nazirliyi və Dünya Bankı tərəfindən reallaşan "Milli Təhsilin İnkişafı" layihəsində məsləhətçi, Türkiyənin Ali Təhsil Şurasının Dünya Bankı ilə birgə icra etdiyi "Müəllim hazırlığı" layihəsində idarəçi olaraq çalışıb.

Beynəlxalq jurnal və kitablarda təhsilin idarəolunması, ali təhsil, təhsil liderliyi, təşkilati dəyişiklik, araşdırma metodları, planlaşdırma və digər mövzularda professorun məqalələri və kitabları yayımlanıb."Türkiyənin dövlət məktəbi niyə hədəfdədir: Yeni Liberal və Yeni Mühafizəkar Taktikalar", "Keyfiyyətin idarəolunması", "Paradiqmalar müharibəsi və beşinci dalğa: sosial dövlətin və yeni liberalizmin hekayəsi", "Sosial elmlərdə keyfiyyət araşdırması metodları" Hasan Şimşekin kitablarından bir neçəsidir.

**Lamiyə ƏLİMƏRDANOVA**

# "ELMDƏ QADINLAR"






## Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100 illiyinə həsr olunmuş konfrans

Aprelin 18-də Naxçıvan Dövlət Milli Dram Teatrında akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100 illiyinə həsr olunmuş "Elmdə qadınlar" adlı konfrans keçirilib.

Konfransdan əvvəl Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi önünə gül dəstələri qoyulub və Heydər Əliyev Muzeyi ziyarət edilib.

Konfransda Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdir müavini Nigar Hacıyeva, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova və digər şəxslər iştirak ediblər.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan konfransda Ulu Öndər Heydər Əliyev, akademik Zərifə xanım Əliyeva və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli açılış nitqi ilə çıxış edərək konfrans iştirakçılarını salamlayıb. Fuad Nəcəfli ölkə Prezidenti cənab İlham Əliyevin "Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamı ilə görkəmli elm xadiminin yubileyinin geniş şəkildə qeyd olunduğunu bildirib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova çıxışında akademik Zərifə xanım Əliyevanın keçdiyi mənalı ömür yolundan söz açıb, oftalmologiya elmində müstəsna xidmətlərinin olduğunu qeyd edib.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov çıxış edərək Zərifə xanımın oftalmologiya elminin inkişafına dəyərli töhfələr verdiyini, bu sahə üzrə yüksəkixtisaslı kadrların yetişdirilməsinə böyük əmək sərf etdiyini, bir-birindən dəyərli 150-dən çox elmi əsər, 12 monoqrafiya, 12 səmərələşdirici təklif və dərs vəsaitlərinin müəllifi olduğunu diqqətə çatdırıb. Nazir müavini Zərifə xanımın birbaşa rəhbərliyi altında gənc elmi işçilərin və həkim-oftalmoloqların böyük bir nəslinin yetişdiyini və alimin özündən sonra dəyərli məktəb qoyduğunu vurğulayıb.

Nazir müavini qeyd edib ki, Zərifə xanım Əliyeva müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı olmaqla yanaşı, sədaqətli dostu və etibarlı silahdaşı olub. Firudin Qurbanov əlavə edib ki, Azərbaycan oftalmologiya elmini bütün dünyada tanıdan Zərifə Əliyevanın açdığı yol ildən-ilə genişlənir, zəngin irsi, pedaqoji fəaliyyəti araşdırılır, öyrənilir və tədqiqat əsərlərinin mövzusuna çevrilir.

Tədbirdə daha sonra çıxış edən digər qonaqlar akademikin tibb elmi üçün əvəzsiz irsindən, mənalı ömür yolu və yazdığı tədqiqat əsərlərindən bəhs ediblər.

Daha sonra "Azərbaycan qadını, anası, həkimi, akademik Zərifə xanım Əliyeva" esse müsabiqəsinin qaliblərinə mükafatlar təqdim olunub. Eyni zamanda, Elm və Təhsil Nazirliyi tərəfindən Naxçıvan Dövlət Universitetinin tibb fakültəsinə yüksək balla qəbul olunan bir qrup tələbəyə hədiyyələr verilib.



Konfrans bədii hissə ilə davam edib. Naxçıvan şəhəri 11 nömrəli körpələr evi-uşaq bağçasının uşaqlarının ifasında kompozisiya nümayiş olunub, həmçinin Naxçıvan Dövlət Universitetinin simfonik orkestrinin ifasında konsert proqramı təqdim edilib.

# "Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyeva: həkimlik andı və vətəndaş missiyası"

## AMEA-da yubiley tədbiri keçirilib

Aprelin 19-da Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) əsas binasında görkəmli oftalmoloq-alim, Əməkdar elm xadimi, akademik Zərifə Əliyevanın anadan olmasının 100 illik yubileyinə həsr edilmiş "Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyeva: həkimlik andı və vətəndaş missiyası" mövzusunda yubiley tədbiri keçirilib.



AMEA-nın və Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdən öncə iştirakçılar Fəxri xiyabanda müasir Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarlarını ziyarət edib, önünə gül dəstələri düzüblər.

Tədbiri giriş sözü ilə açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Azərbaycan oftalmologiya elminin inkişafında böyük xidmətləri olmuş akademik Zərifə Əliyevanın həyat və fəaliyyəti haqqında danışıb. Akademik İsa Həbibbəyli qeyd edib ki, Zərifə xanım Əliyeva görkəmli elm və dövlət xadimi Əziz Əliyevin ailəsində göz açmışdır. Görkəmli oftalmoloq Azərbaycan xalqının Ümummilli Lideri, dünyaşöhrətli dövlət xadimi Heydər Əliyevin həyatına tam mənası ilə dəstək verməsi, onun çoxşaxəli fəaliyyətində böyük silahdaş olması nümunəsini göstərib. Zərifə xanım Əliyevanın elmi fəaliyyətindən söz açan İsa Həbibbəyli böyük alimin elmi tədqiqatlarından danışıb. Bildirib ki, alim öz elmi araşdırmaları ilə qısa müddətdə ölkəmizdə və xaricdə böyük şöhrət qazanmışdır.

Tədbirdə çıxış edən səhiyyə naziri Teymur Musayev 2023-cü ilin əlamətdar bir il olduğunu-Azərbaycan tarixinə adları qızıl hərflərlə yazılmış iki böyük şəxsiyyətin - dahi siyasi xadim, müasir Azərbaycanın memarı və qurucusu, Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın elm və təbabət tarixində silinməz izlər qoymuş görkəmli alim və həkim, Əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyevanın anadan olmalarının 100 illik yubileyidir. Azərbaycan tibb elminə xüsusi töhfələr verən Zərifə xanım Əliyevanın həyat və yaradıcılığından söhbət açan səhiyyə naziri Teymur Musayev akademikin elmi irsinin zənginliyindən danışıb.

Tədbirdə çıxış edənlər - AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynova, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova və başqaları görkəmli alim Zərifə xanım Əliyevanın fəaliyyətindən söz açıblar.

**Niyazi RƏHİMOV**

# "GƏNC QIZLARIN TƏHSİLİNƏ DƏSTƏK"




**Təhsilin İnkişafı Fondu tərəfindən həyata keçirilən layihə uğurla davam edir**



# 2023 – "Heydər Əliyev İli"



**"Azərbaycan müəllimlərinin cəmiyyətimizin həyatında oynadığı rol müstəsna əhəmiyyətə malikdir. Müəllimlik xalqımızın ən çox hörmət etdiyi, ən çox əziz tutduğu bir peşədir. Təsadüfi deyil ki, cəmiyyətimizin ən layiqli nümayəndələri sənətindən, işindən asılı olmayaraq müəllim adlandırılır. Tariximizin bütün dövrlərində bu ada məhəbbətlə yanaşılmış və onun daşıyıcılarına xüsusi ehtiram bəslənmiş, diqqət göstərilmişdir".**

**Heydər ƏLİYEV**

## Müstəqillik dövrümüzün ilk təhsil islahatı müzakirə edilib

Aprelin 13-də ADA Universitetində "Heydər Əliyev və Azərbaycan təhsilində ilk islahatlar" mövzusunda "dəyirmi masa" keçirilib.

Elm və Təhsil Nazirliyinin və ADA Universitetinin Təhsil fakültəsinin birgə təşkilatçılığı ilə keçirilən müzakirədə 1999-2003-cü illərdə keçirilən təhsil islahatında bilavasitə iştirak edən islahatçılar, bu prosesin icraçıları və təhsil ekspertləri iştirak ediblər. Tədbirdə sözügedən islahatın köhnə ideologiyadan uzaq, milli kimliyimizi özündə əks etdirən təhsil ənənələrinin formalaşmasına və müasir təhsil sisteminə təsirləri barəsində danışılıb.



Açılış nitqi ilə çıxış edən ADA Universitetinin akademik işlər üzrə prorektoru Vəfa Kazdal qonaqları salamlayaraq bildirib ki, müasir təhsil mühitindəki uğurlar o dövrdə baş verən islahatın nəticəsidir.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov çıxışında Ümummilli Lider Heydər Əliyevin Azərbaycan təhsil tarixindəki misilsiz xidmətlərindən danışıb, Ulu Öndərin təhsilin gələcəyi müəyyən edən sahələrdən olduğuna, güclü təhsilin isə güclü iqtisadiyyat əsasında formalaşdığına inandığını bildirib. Vurğulanıb ki, azərbaycançılıq dəyərləri həm öncəki, həm də hazırkı təhsil islahatlarının əsasını təşkil edir.

Tədbirdə çıxış edən Riyaziyyat və Mexanika İnstitutunun direktoru Misir Mərdanov 15 iyun 1999-cu il tarixində Heydər Əliyevin Sərəncamı ilə təsdiq olunan "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"nı səsləndirib. Bu tarixi sənədin milli təhsilin məzmun və mahiyyətinə müasir yanaşma ortaya qoyduğunu ifadə edərək sözügedən islahatları dünya təhsilinə inteqrasiya kimi qiymətləndirib.

ADA Universitetinin Təhsil fakültəsinin dekanı Ülviyyə Mikayılovanın moderatorluğu ilə keçirilən müzakirədə "İslahat Proqramı"nın icrası zamanı əldə edilən təcrübə və müşahidələr bölüşülüb.

## "Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü"



## Mingəçevirdə elmi-praktik konfrans keçirilib

2023-cü il aprelin 19-da Mingəçevir Şəhər İcra Hakimiyyəti və Mingəçevir Dövlət Universitetinin (MDU) birgə təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində "Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü" mövzusunda elmi-praktik konfrans keçirilib.

Konfransdan əvvəl, iştirakçılar Heydər Əliyev Mərkəzi önündə ucaldılmış Ulu Öndərin abidəsi qarşısına gül dəstələri qoyaraq ehtiramlarını ifadə edib və Ümummilli Liderin anadan olmasının 100 illiyinə həsr edilmiş sərgi ilə tanış olublar.

Konfrans Vətən uğrunda canından keçən şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Konfransın açılışında çıxış edən Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov Ulu Öndərin hakimiyyətinin birinci və ikinci dövrlərindəki fəaliyyətindən ətraflı bəhs edib, Azərbaycanın aqrar dövlətdən yüksək sürətlə inkişaf edən, intibah dövrü keçirən bir ölkəyə çevrilməsini konkret faktlarla şərh edib.

Ulu Öndərin fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunduqdan sonra məruzələr dinlənilib.

Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavini Əli Hüseynli "Ulu Öndər-Milli Müstəqillik uğrunda mübarizənin həqiqi carçısı", Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik Dilqəm Tağıyev "Azərbaycanda elmin və alimin ən böyük himayədarı", Azərbaycan Dövlət İqtisad Universitetinin professoru, YAP İdarə Heyətinin üzvü Elnur Sadıqov "Ümummilli Lider və Azərbaycanın milli iqtisadi inkişaf strategiyası", Mingəçevir Dövlət Universitetinin rektoru Şahin Bayramov "Heydər Əliyevin milli təhsilimizin inkişafında misilsiz xidmətləri" mövzularında məruzələrlə çıxış ediblər. Çıxışlarda Ulu Öndərin milli müstəqillik uğrunda mübarizənin həqiqi carçısı, elmin və alimin ən böyük dostu olduğu qeyd edilib, Heydər Əliyevin hərtərəfli inkişaf strategiyasının misilsiz töhfələrindən bəhs olunub.

Məruzələr iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

Qeyd edək ki, "Heydər Əliyev İli" çərçivəsində Mingəçevirdə müxtəlif formatlı tədbirlər həyata keçirilir.

## Dərs, yarış, əyləncə...

### Qarapapaq kənd məktəbində Heydər Əliyevin 100 illiyinə həsr olunmuş şeir müsabiqəsi

"Azərbaycan" səslənir. Səməd Vurğunun məşhur şeirini dünyanın nüfuzlu, türk dünyasının əbədiyaşar liderlərindən biri, azərbaycanlıların dahi şəxsiyyəti Heydər Əliyev səsləndirir. Növbəti bəndləri Aysu Vəliyeva, sonra Nuray Qurbanlı, Nuray Nəbiyeva, Turan Quliyeva, daha sonra Ayşən Tanrıverdiyeva, Tunar Ələkbərov, nəhayət Hüseyn Sadıqov davam etdirir. Şagirdlərin hər biri özünəməxsus ifa etdiyi bəndlər üçün xüsusi fəallıq göstərir, şeiri adının işığına yığışdıqları Ulu Öndərə sonsuz sevgi ilə davam etdirməyə çalışırlar. Sanki "Azərbaycan" deyəndə səsi titrəyən bəşəri liderdən Azərbaycan sevgisini təhvil alırlar...




Onlar Qazax rayonundakı Qarapapaq kənd ümumi orta məktəbinin VII sinif şagirdləri, kənd məktəbinin ürəyində, Heydər Əliyev sevgisi ilə yanaşı, həm də ədəbiyyat, mütaliə sevgisi, qiraət həvəsi olan yetirmələridir. Dərs onların dərsidir, amma iştirakçı, sadəcə onlar deyillər. Çünki bu, bir dərs deyil, həm də yarışdır. 6, 7 və 8-ci sinif şagirdlərinin qatıldığı yarışı məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Səyalı Əliyeva Heydər Əliyevin 100 illiyinə həsr edib: "Şagirdlərimizə Heydər Əliyev sevgisi aşılamağın ən yaxşı yoludur, məncə. Onlar Ulu Öndərimizi böyüklərdən eşidir, görüntülərdən tanıyır. Amma ürəklərdə yaşayan, şeirlərdə, nəğmələrdə yaşadılan bir lideri hiss etmək üçün onu anladan, ifadə edən şeirləri əzbərləyib təqdim etmələrini istədim onlardan. Şeir seçimini də özlərinə həvalə elədim. Müsabiqə üçün şeir seçənə qədər Heydər Əliyevə həsr olunan onlarla şeir oxudular. Aralarından ən ürəklərinə yatanını da özləri seçdilər".

Bəs, müsabiqə təşkilatçısı olan fənn müəllimi iştirakçıları necə seçib?

S.Əliyeva deyir ki, məktəbdə bu 3 sinifdə dərs aparır. Müsabiqə barədə tədris həyata keçirdiyi siniflərə 1 həftə əvvəl elan edib: "Özümün dərs keçdiyim siniflərdə elan etdim ki, ürəyində bəslədiyi Heydər Əliyev sevgisini kim daha yaxşı ifadə etsə, onu mükafatlandıracağam. Elan mətnini hazırlayıb sinif otaqlarına asdım. Bunun üçün də 1 həftə vaxt verdim. VII sinif şagirdləri arasında ədəbiyyata marağı olan uşaqlar üstünlük təşkil edir. Onlarla birgə işləməyin dərs dediyim digər siniflərdə - 6 və 8-ci siniflərdə də effektini görəcəyimi düşündüm. Üstəlik, yarışaraq öyrənmək maraqlı olduğu qədər, yaddaqalan və stimullaşdırıcıdır. Nəinki hədiyyə qazanmaq, sadəcə qalib olmaq həvəsi belə şagirdlərimi öz ana dilini, ədəbiyyatı oxumağa həvəsləndirəcək, Heydər Əliyevi beyinlərinə əbədi həkk etdirəcək".

Mövzu bəlli olub: "Ədəbiyyatda Heydər Əliyev". Sinif otaqlarında asılan elandan çox keçmədən bu yarışın iştirakçıları da müəyyənləşib: VI sinifdən 2 nəfər, VII sinifdən 7 nəfər, VIII sinifdən isə 1nəfər iddialı çıxıb.

Bir həftəlik qızğın hazırlıq şagirdlərlə yanaşı, müəllimin özü üçün də həyəcanlı keçib: "Ümummilli Liderimiz qeyri-adi bacarıqları, ağlı, siyasi qabiliyyəti, uzaqgörən qərarları ilə yanaşı, həm də özünəməxsusluğu ilə xalqın qəlbində taxt qurub. Ona həsr olunan layihə də sıradan olmamalıydı. Ona görə də hər detal üzərində ayrıca işlədim. Hədiyyə seçərkən də, diploma hazırlayarkən də atdığım hər addımın şagirdlərim üçün nəsə ifadə etməsinə çalışdım. Müsabiqənin standart formatda olmaması üçün əlimdən gələni etdim. Nəticədə ortaya çıxan dərs, həm bir yarış oldu, həm də Heydər Əliyevə həsr olunan gecəyə çevrildi".

Heydər Əliyevin səsi, görüntüləri, onunla bağlı seçilən süjetlerin hər biri dahi lideri anlatdı. Unudulmaz liderin ədəbiyyatda buraxdığı iz anbaan üzə çıxdı, gözlərdə canlandı. Heydər Əliyev danışdı, şagirdlər ona rəy bildirdi, sözünə qüvvət verdi. Bir növ liderləriylə danışdılar, düşüncələrini paylaşdılar. Lider necə olur? Heydər Əliyev nəyi ilə liderdir? Xalq onu niyə sevir? - kimi sualların cavabları ilə bağlı artıq onların hər birinin öz düşüncəsi var. Məsələn, Baba Vəziroğlunun "Sən elə bir zirvəsən" şeri ilə qalib seçilən VII sinif şagirdi Ayşən deyir: "Heydər Əliyev uşaqları sevirdi, uşaqlarla danışanda uşaq kimi olurdu. Onunla bağlı çoxlu şeirlər oxumuşam, videolara baxmışam. Ulu Öndərimizin şeir deməyini dinlədim, hətta mahnı oxuduğunu gördüm videoların birində. Məncə, xalq Heydər Əliyevi onlardan biri kimi davrandığı üçün sevib. Onu mən də sevirəm".

Müsabiqənin münsiflər heyətində iştirak edən məktəbin direktoru Şəhla Bayramova şagirdləri fəal iştiraklarına - maraqlı şeir seçiminə, gözəl qiraət qabiliyyətlərinə görə təbrik edib: "Seçdiyiniz şeirlər həm maraqlı idi, həm də Ulu Öndərimizi çox doğru anladırdı. Belə bir maraqlı dərsə görə sizi də, müəlliminizi də təbrik edirəm. Məni elə həvəsləndirdiniz ki, lap sizə qoşulub şeir demək istədim. Deyəsən, növbəti yarışda mən də sizə rəqib olacağam".

Dediyi kimi, həvəslənən məktəb direktoru özünün Ulu Öndərə həsr etdiyi şeirini dedi. Onun şeiri də şagirdləri üçün maraqlı oldu.

Münsiflərin qərarı ilə VIII sinifdə təhsil alan 3 şagird fərqləndirildi: Ayşən Tanrıverdiyeva, Aysu Vəliyeva və Nuray Nəbiyeva ilk üçlükdə qərarlaşaraq müsabiqənin qalibi seçildilər. Amma bu dərsin qalibi çoxdur. Kənd məktəbində Heydər Əliyev dərsi həm yaddaqalan, həm də maraqlı idi.

**Ruhiyyə DAŞSALAHLI**

# Yüksək nəticə, parlaq qələbə

## 12-ci Avropa Qızlar Riyaziyyat Olimpiadasında uğur qazanan məktəblilərimiz



⇦ Əvvəli səh.1

Onu da qeyd edək ki, yarışda 42 mümkün baldan hamısını toplayan 14 iştirakçılardan biri qızıl medal qazanan Fidan Qarayeva olub. Mükafata layiq görülən məktəblilərin hər biri ilə söhbətləşdik. Onlar öz təəssüratlarını, əldə etdikləri nailiyyətlərini, gələcək hədəflərini “Azərbaycan müəllimi”nə danışdılar. Onları tanıyaq.

### “Olimpiadalar mənim təhsilimin mühüm hissəsi olub”



10 yaşından başlayaraq olimpiadalarda iştirak edən və EGMO-da qızıl medal qazanan Fidan Qarayeva FRİTL-in XI sinif şagirdidir. O, eyni zamanda, Massaçusets Texnologiya İnstitutuna (Massachusetts Institute of Technology) birbaşa qəbul alan məktəblimizdir. Fidan dəfələrlə beynəlxalq olimpiadalarda iştirak edərək medallar qazanıb.

2021, 2022 və 2023-cü illərdə Beynəlxalq Jautikov olimpiadalarında iştirak edərək gümüş medal qazanıb. 2022-ci ildə Avropa Qızlar Riyaziyyat Olimpiadasında qızıl, Dünya Riyaziyyat Olimpiadasında bürünc, Avropa Qızlar İnformatika Olimpiadasında isə bürünc medal əldə edib: “2019-cu ilin aprel ayında Kiyevdə keçirilən Avropa Qızlar Riyaziyyat Olimpiadasında bürünc medal qazanmışam və ilk dəfə olaraq Azərbaycana bu olimpiadadan medal gətirmişik. O zaman məsələnin birini çox uzun yolla həll etmişdim, həlli 11 səhifə yer tutmuşdu, məsələyə 3 saata yaxın vaxt sərf etmişdim. Cəmi 13 yaşım olsa da, məsələ qarşısında təslim olmamışdım. Heç vaxt gördüyüm işi çətinliyinə görə yarımçıq qoymamışam, ruhdan düşməmişəm. Ümumiyyətlə, hər zaman olimpiadalar mənim təhsilimin mühüm hissəsi olub”.

O qeyd edib ki, Avropa Qızlar Riyaziyyat Olimpiadasında (EGMO) iştirakı əsas hədəflərindən olan iyul ayında keçiriləcək Dünya Riyaziyyat Olimpiadasına (İMO) hazırlıq rolunu oynayır.

### “Olimpiada mühiti özünü təkmilləşdirməyə şərait yaradır”



Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin XI sinif şagirdi Fidan Cəfərli uşaqlıqdan riyaziyyat fənninə böyük maraq bəsləyib. Bu da onu olimpiadalarda iştirak etməyə sövq edib. VI sinifdə Respublika Fənn Müsabiqəsində riyaziyyat fənni üzrə 1-cilərin 1-si olub. VII sinifdə fizika üzrə Respublika Fənn Müsabiqəsində qızıl medal qazanıb. VIII sinifdə riyaziyyat üzrə Respublika Fənn Olimpiadasında bürünc, IX və X sinifdə gümüş medal əldə edib. IX sinifdə Balkan Olimpiadasında gümüş medala, Avropa Kubokunda 2-ci yerə layiq görülüb. Fənn Müsabiqələrində uğurlu iştirakı Fidanın öz üzərində səylə işləməyinə, olimpiadalara daha ciddi hazırlaşmağına səbəb olub. Nəticədə o, 16-17 fevral 2022-ci il tarixlərində Qazaxıstanın Almatı şəhərində fizika, riyaziyyat və informatika fənləri üzrə onlayn XVIII Beynəlxalq Jautikov Olimpiadasından riyaziyyat üzrə bürünc medal qazanıb. 2022-ci ildə Avropa Qızlar Riyaziyyat Olimpiadasında (EGMO) iştirak edərək bürünc medal qazanıb. Fidan 13-19 aprel tarixlərində keçirilən yarışda bir balla medala düşə bilmədiyini, “Həvəsləndirici mükafat” sertifikatına layiq görüldüyünü qeyd edib: “Qəbul üçün bir neçə universitetə müraciət etmişəm. Toronto Universitetindən (University of Toronto) qəbul gəlib. Seçimi hələ etməmişəm. Başqa universitetlərdən də cavab gözləyirəm. Olimpiadalar insana daim bir-birinə dəstək olan, eyni zamanda bir-biri ilə rəqabətdə olan mühit, bu mühit isə iştirakçının özünü təkmilləşdirməsinə şərait yaradır”.

### “Qalib olmağım gələcək hədəflərimə çatmağa stimul oldu”



7-ci sinifdən etibarən Elm və Təhsil Nazirliyinin, Beynəlxalq Olimpiadalar Mərkəzinin təşkilatçılığı ilə keçirilən dərslərdə iştirak etdiyini deyən Sevinc Mahmudova Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin X sinif şagirdidir. Riyaziyyat fənninə marağı uşaqlıqdan yaranıb və bu maraq onun daha böyük yarışlarda iştirak etməyi ilə nəticələnib: “Olimpiadalarda iştirak etməyim mənə kifayət qədər təcrübə qazandırdı, hər şeydən öncə məni yaxşı bir cəmiyyətin üzvü elədi. İstər Azərbaycanda, istərsə də xarici ölkələrdə maraqlı insanlar tanıdım. Ümumiyyətlə, olimpiada sahəsinə 6-cı sinifdə Kenquru Olimpiadasında fərqlənməklə başladım. Respublika Fənn olimpiadalarında ötən il iştirak edərək gümüş medala layiq görülmüşəm. Bu qalibiyyət məni daha da həvəsləndirdi, 2022-ci ildə EGMO-da iştirak edərək “Həvəsləndirici mükafat” qazandım, bu il isə bürünc medala layiq görüldüm. Qalib olmağım mənə daim özümə inanmağa, gələcək hədəflərimə çatmağa stimul oldu”.

Növbəti illərdə daha yaxşı nəticə göstərəcəyinə inanan Sevinc deyir ki, nədəsə uğur əldə etmək istəyiriksə, heç vaxt geri çəkilməməli, daim irəli baxmalı və çox çalışmalıyıq.

### “Fənnə olan sevgi, uğurlara aparan yol”



Sözügedən olimpiadada “Həvəsləndirici mükafat” sertifikatına layiq görülən Səfura Ramizqızı da Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin XI sinif şagirdidir. O, uşaqlıqdan şahmatla məşğul olduğunu, riyaziyyat fənninə sevginin də buradan qaynaqlandığını bildirib. 6-cı sinifdən başlayaraq Respublika Fənn olimpiadalarında iştirak edib, elə həmin il riyaziyyat fənnindən bürünc medal qazanıb. VII sinifdə fizika üzrə gümüş, VIII sinifdə riyaziyyat fənni üzrə bürünc medala layiq görülüb. Ötən il, yəni X sinifdə oxuyarkən Avropa Qızlar Riyaziyyat Olimpiadasında bürünc medal qazanıb. Elə həmin ildə Respublika Fənn Olimpiadasında da müvəffəqiyyət əldə edərək bürünc medala layiq görülüb.

*Hər bir məktəblini təbrik edir, gələcək inkişaflarında müvəffəqiyyətlər arzulayırıq. İnanırıq ki, şagirdlərimiz ölkəmizi, vətənimizi dünya arenasında layiqincə təmsil edəcəklər.*

**Tünzalə QULİYEVA**

## Region təhsili

# “Tarix yaradan DAHİ”



Şəki şəhər 14 nömrəli tam orta məktəbdə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş “Tarix yaradan dahi” adlı tədbir keçirilib.

Şəki-Zaqatala Regional Təhsil İdarəsindən daxil olan məlumata görə, tədbirdə RTİ-nin işçiləri, Şəki Şəhər İcra Hakimiyyətinin, Şəki şəhər Gənclər və İdman İdarəsinin, Şəki rayonu üzrə təhsil sektorunun, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının Şəki rayon komitəsinin əməkdaşları, Vətən müharibəsi iştirakçıları, valideynlər və şagirdlər iştirak ediblər.

Tədbir Dövlət Himninin səsləndirilməsi, Ulu Öndərin və Vətən şəhidlərinin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Tədbiri giriş sözü ilə açan məktəbin direktoru İradə Abdullayeva qonaqları salamlayaraq Ulu Öndərin xatirəsinin nəsillərin yaddaşında hər zaman yaşayacağını bildirib. Məktəb direktoru Heydər Əliyevin təməlini qoyduğu sosial-iqtisadi inkişaf strategiyasının bu gün uğurla davam etdirildiyini, Ümummilli Liderin zəngin irsinin təbliğinin şagirdlərin müvafiq biliklərinin daha da zənginləşdirilməsinə zəmin yaratdığını diqqətə çatdırıb.

Tədbirdə çıxış edən RTİ-nin müdir müavini Günay Mahmudova müasir Azərbaycanın memarı Heydər Əliyevin zəngin həyat və fəaliyyətindən, Vətən və xalq qarşısındakı misilsiz xidmətlərindən bəhs edib. G.Mahmudova bildirib ki, dahi lider Heydər Əliyevin müdrikliyi, siyasi iradəsi, uzaqgörənliyi nəticəsində digər istiqamətlərdə olduğu kimi, təhsil sahəsində də böyük nailiyyətlər əldə olunub.

Ulu Öndər Heydər Əliyevin təhsilə daim böyük önəm verdiyini deyən G.Mahmudova Ümummilli Liderin ideyalarının Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini diqqətə çatdırıb.

Sonra Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbirdə şagirdlər dahi şəxsiyyət Heydər Əliyevə həsr olunmuş şeir söyləyib, ədəbi-bədii kompozisiyalar nümayiş etdiriblər.

# “Şahin” hərbi-idman oyununun rayon birinciliyi



İmişli şəhər 2 nömrəli tam orta məktəbdə rayonun ümumi təhsil məktəbliləri arasında “Şahin” hərbi-idman oyununun rayon birinciliyi keçirilib.

İmişli Rayon Təhsil Sektorundan daxil olan məlumata görə, öncə torpaqlarımızın bütövlüyü uğrunda həlak olmuş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Hərbi idman oyununda rayonun ümumtəhsil məktəblərinin VIII-X sinif şagirdləri birincilik uğrunda mübarizə aparıblar. Hakimlərin yekun qərarına əsasən, I yeri Rəsullu kənd tam orta məktəbin komandası tutub.

Yarışın qalibi olan Rəsullu kənd tam orta məktəbin komandası “Şahin” hərbi-idman oyunlarının zona birinciliyinin final mərhələsinə vəsiqə qazanıb.

“Şahin” hərbi-idman oyununun keçirilməsində məqsəd yeniyetmə və gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi işinin daha da gücləndirilməsi, orta məktəb şagirdlərini hərbi-idman oyunlarına cəlb etməklə onların ordu sıralarında xidmətə hazırlanmasıdır.

# STEAM mərkəzində təlim xarakterli görüş




Tovuz rayon Bozalqanlı kənd Y.Sadıqov adına tam orta məktəbdə fəaliyyət göstərən STEAM mərkəzində təlim xarakterli görüş təşkil edilib.

Qazax-Tovuz RTİ-dən aldığımız məlumata görə, tədbirdə Şəmkir, Tovuz və Qazax rayonunda fəaliyyət göstərən peşə təmayüllü siniflərdə dərs deyən müəllimlər və təhsil alan şagirdlər iştirak ediblər.

İştirakçılar öncə 3D modeli üzrə düzəldilən əl işləri ilə tanış olublar.

Sonra STEAM təlimçisi Günel Hacıyeva görüş iştirakçılarını maraqlandıran sualları cavablandırıb.

**Şakir CƏFƏROV**

## Məktəbdaxili qiymətləndirmə

Bakı Şəhəri üzrə Təhsil İdarəsində (BŞTİ) məktəbdaxili qiymətləndirmə ilə bağlı görüş keçirilib.

Görüşdə BŞTİ-nin Təhsilin keyfiyyətinə nəzarət sektorunun müdiri Anar Mustafazadə, sektorun əməkdaşları və ibtidai sinif müəllimləri iştirak edib.

Görüşün keçirilməsində əsas məqsəd məktəbdaxili qiymətləndirmənin keyfiyyətli təşkili üçün peşəkar yanaşmalara diqqət yetirmək, müəllimlərə dəstək üçün təkliflər hazırlamaq, qiymətləndirmə ilə bağlı problemləri və həlli yollarını araşdırmaqdan ibarətdir.

Görüşdə şagirdlərin biliyinin düzgün qiymətləndirilməsinin vacibliyi, ümumi təhsildə qiymətləndirmə prosesində daxili və xarici keyfiyyət təminatının təkmilləşdirilməsi, məktəbdaxili qiymətləndirmənin təşkilində müasir yanaşmaların mütəmadi olaraq nəzərdən keçirilməsi və digər mövzulara dair fikir mübadiləsi aparılıb.

Görüşdə iştirak edən ibtidai sinif müəllimlərinə sorğu təqdim olunub.

Sorğular təhlil olunduqdan sonra növbəti görüşlərin keçirilməsi nəzərdə tutulur.

# Səhnələşdirilmiş məhkəmə müsabiqəsinin praktik mərhələsi

### Hüquqşünas olmaq istəyən məktəblilər nəzəri bilikləri praktik formada tətbiq etməyi və təkmilləşdirməyi öyrənirlər



"Gənc Hüquq Müdafiəçiləri" səhnələşdirilmiş məhkəmə müsabiqəsinin şifahi çıxışlardan ibarət mərhələsi keçirilib.

Bakı Şəhəri Yasamal Rayon Məhkəməsində təşkil olunmuş tədbirdə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) müdiri Mehriban Vəliyeva, Bakı Şəhəri Yasamal Rayon Məhkəməsinin sədri İslam Əliyev, Yasamal Rayon İcra Hakimiyyəti (RİH) başçısının müavini Təravət Muradova, "ELSA Azərbaycan"ın prezidenti Rəhim Abasov, "ELSA Azərbaycan" səhnələşdirilmiş məhkəmə müsabiqələri üzrə vitse-prezident Nərminə Hüseynzadə, BŞTİ-nin müvafiq struktur bölmə rəhbərləri, məktəb direktorları, mentor tələbələr və şagirdlər iştirak ediblər.

M.Vəliyeva "Gənc Hüquq Müdafiəçiləri" səhnələşdirilmiş məhkəmə müsabiqəsinin yuxarı sinifdə təhsil alan, xüsusilə də təhsilini hüquqşünaslıq ixtisasında davam etdirmək istəyən məktəblilərin hüquqi biliklərini artırmaq, gələcəkdə fəal vətəndaş kimi onlarda öz hüquqları ilə yanaşı digər vətəndaşların da hüquqlarını müdafiə etmək bacarıqlarının formalaşdırılması, eləcə də onların real məhkəmə mühiti ilə tanışlığına imkan yaratmaq baxımından mühüm əhəmiyyət daşıdığını bildirib. İdarə müdiri Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Avropa Hüquqşünas Tələbələr Assosiasiyası Bakı İctimai Birliyi ("ELSA Azərbaycan") ilə birgə təşkil olunan müsabiqənin bütün iştirakçılarına uğurlar arzulayıb.

"Heydər Əliyev İli" çərçivəsində belə bir müsabiqənin keçirilməsinin təqdirəlayiq bir missiya olduğunu deyən İdarə müdiri Ümummilli Liderin milli dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində atdığı vacib addımlar sırasında insan amilinə yüksək dəyər verən hüquq sisteminin qurulması və inkişaf etdirilməsinin xüsusi yer tutduğunu söyləyib.

Müsabiqənin əhəmiyyəti barədə danışan Bakı Şəhəri Yasamal Rayon Məhkəməsinin sədri İ.Əliyev məktəblilərin bu müsabiqədə iştirak etməklə hüquqşünaslıq ixtisası, onun tətbiqi və məhkəmə mühiti ilə yaxından tanış olmaq şansı əldə etdiklərini söyləyib.

"ELSA Azərbaycan"ın prezidenti R.Abasov, "ELSA Azərbaycan" səhnələşdirilmiş məhkəmə müsabiqələri üzrə vitse-prezident N.Hüseynzadə müsabiqə barədə ətraflı məlumat veriblər. Qeyd ediblər ki, "ELSA Azərbaycan" tərəfindən 2011-ci ildən etibarən təşkil olunan səhnələşdirilmiş məhkəmə müsabiqələri hüquq fakültəsi tələbələrinin və hüquqşünas olmaq istəyən məktəblilərin inkişafına müstəsna töhfələr verir. Məhkəmə müsabiqələrində iştirak edən hüquq ixtisası üzrə təhsil alan tələbələr və hüquqşünas olmaq istəyən məktəblilər nəzəri bilikləri praktik formada tətbiq etməyi və təkmilləşdirməyi öyrənirlər.

Yasamal RİH başçısının müavini T.Muradova, məktəb direktorları, mentor tələbələr və şagirdlər səhnələşdirilmiş məhkəmə müsabiqəsinin keçirilməsinin əhəmiyyəti barədə danışıblar.

Daha sonra "Gənc Hüquq Müdafiəçiləri" səhnələşdirilmiş məhkəmə müsabiqəsinin şifahi çıxışlardan ibarət mərhələsinin dörddəbir turu keçirilib. Bu mərhələdə 2 şagird və 1 tələbədən ibarət olmaqla, ümumilikdə 8 komanda iddiaçı və cavabdeh kimi çıxış edib. Nəticədə Bakı şəhəri 20 və 83 nömrəli məktəb-liseylər, 287 nömrəli Zəkalar liseyi və 7 nömrəli tam orta məktəbin şagirdlərindən ibarət komandalar qalib gələrək növbəti mərhələyə vəsiqə qazanıblar.

Sonra növbəti tura vəsiqə qazanan komandalar təltif olunublar.

## 4-cü siniflərdə monitorinq keçiriləcək

İyunun 10-da Elm və Təhsil Nazirliyi ölkə üzrə bütün dövlət ümumi təhsil müəssisələrinin 4-cü siniflərində monitorinq təşkil edəcək. Monitorinq tədris dili və riyaziyyat fənləri üzrə aparılacaq.

Şagird nailiyyətlərinin yaxşılaşdırılması, IV sinfin sonunda şagirdlərdə müvafiq standartlar üzrə bilik və bacarıqların hansı səviyyədə formalaşdığının müəyyən edilməsi və ibtidai təhsil səviyyəsində keyfiyyətin artırılması istiqamətində tədbirlərin görülməsi monitorinqin əsas məqsədlərindəndir.

Monitorinqdə şagirdlərə təqdim olunacaq tapşırıqlar tədris dili fənnindən oxu və dil qaydaları məzmun xətlərini, riyaziyyat fənnindən isə ədədlər və əməllər, cəbr və funksiyalar, həndəsə, ölçmə, statistika və ehtimal məzmun xətlərini əhatə edəcək. Təhsilalanlara tədris dili fənni üzrə 30 qapalı, riyaziyyat fənni üzrə isə 27 qapalı və 3 açıq sual təqdim olunacaq. Monitorinqin müddəti 120 dəqiqədir.

Monitorinqin nəticəsi şagirdlərin summativ qiymətləndirmə nəticələrinə, eyni zamanda, onların sinifdən sinfə keçmələrinə təsir göstərmir.

Qeyd edək ki, ümumi təhsil müəssisələrində IV siniflər üzrə bütün təhsilalanların monitorinqdə iştirakı icbaridir. Yalnız üzrlü səbəblər (xəstəlik (tibbi arayış təqdim edildikdə), bədbəxt və fövqəladə hadisə) olduğu təqdirdə təhsilalanlar monitorinqdə iştirak etməyə bilərlər.

# "MərkəzdəSiz"

## Şagird Parlamentinin təşkilatçılığı ilə növbəti görüş



Paytaxtdakı 143 nömrəli tam orta məktəbin reallaşdırdığı "MərkəzdəSiz" layihəsi çərçivəsində növbəti görüş keçirilib.

Məktəbin Şagird Parlamentinin iştirakı ilə həyata keçirilən layihənin budəfəki qonaqları Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) müdir müavini Anar Məmmədov, "T-Network" təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının rəhbəri Cəfər Mənsimi olub.

Görüşdə məktəb rəhbərliyi, müəllimlər və şagirdlər iştirak ediblər.

Görüşdən öncə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi çərçivəsində Zəfər tarixini əks etdirən barelyefin açılışı olub.

Giriş sözü ilə çıxış edən 143 nömrəli tam orta məktəbin direktoru Rübabə Abdullayeva qonaqları salamlayaraq "MərkəzdəSiz" layihəsi barədə ətraflı məlumat verib.

BŞTİ-nin müdir müavini Anar Məmmədov çıxışı zamanı savadlı, dünyagörüşlü, cəmiyyətə faydalı şəxsiyyətlər kimi yetişmələri üçün məktəblilərə bir sıra vacib tövsiyələr verib. Hadisələrə məntiqli yanaşmaq və imkanları fürsətə çevirməyin önəmindən danışan A.Məmmədov bildirib ki, uğur qazanmaq üçün ağıl, ruh və bacarıq əsas rol oynayır. Məktəbliləri cəhd etməkdən çəkinməməyə çağıran A.Məmmədov başqalarının uğur yolunun ən böyük motivasiya qaynağı olduğunu vurğulayıb.

"Əvvəlki sən olma, yeni sən yarat" mövzusunda çıxış edən "T-Network" təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının rəhbəri Cəfər Mənsimi şagirdlərə uğura gedən yolda qarşıya çıxan çətinliklərlə mübarizə aparmağın, yeni ideya və məqsədlər formalaşdırmağın yollarından danışıb. C.Mənsimi müəllifi olduğu "Uğur kitabı"nı məktəblilərə hədiyyə edib.

Qeyd edək ki, "MərkəzdəSiz" layihəsinin əsas məqsədi X-XI sinif şagirdlərinə ixtisas seçimi, karyera planlamasına dair tövsiyələr vermək, peşəyə yönəlməyə təsir edən amillər, uğura gedən yolun sirləri, müstəqil qərarvermə bacarıqlarının formalaşdırılması istiqamətində dəstək olmaqdan ibarətdir.



# BP-nin vitse-prezidenti "Məktəbdə..."

"Məktəbdə..." layihəsinin növbəti görüşü paytaxtdakı 8 nömrəli tam orta məktəbdə keçirilib. Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən reallaşdırılan, "Kaspi" qəzeti və "Kaspi.az" saytının informasiya dəstəyi ilə ərsəyə gələn layihənin budəfəki qonağı BP şirkətinin Xəzər bölgəsində xarici əlaqələr və kommunikasiya üzrə vitse-prezidenti, beynəlxalq münasibətlər və enerji məsələləri üzrə mütəxəssis Bəxtiyar Aslanbəyli olub.

### Layihənin qonağı uğurlu həyat hekayəsini şagirdlərə danışıb



Şagirdlərlə səmimi ünsiyyət ortamında keçən görüşdə B.Aslanbəyli məktəb illəri, sevimli müəllimləri ilə bağlı xatirələrindən, həyat yolunun maraqlı məqamlarından, sürətlə dəyişən dünyada nəsillər arasında yaşanan oxşar və fərqli cəhətlərdən söz açıb. Qonaq məşğul olduğu fəaliyyət sahələrindən, əldə etdiyi nailiyyətlərdə aldığı təhsilin və qazandığı təcrübələrin rolundan danışıb.

B.Aslanbəyli böyük enerji layihələrinin müəllifi və iştirakçısı kimi Azərbaycanın regionda artan nüfuzu, bu layihələrin gələcək perspektivləri, ölkəmizin alternativ enerji potensialı barədə məktəbliləri məlumatlandırıb. Qonaq, həmçinin məşğul olduğu sahələr arasında xüsusi yeri olan müəllimlik fəaliyyətinin həyatındakı yeri və rolundan söz açıb, ixtisas seçimi ilə bağlı gənclərə tövsiyələr verib, şagirdləri düşündürən suallara aydınlıq gətirib.

Görüşü, həmçinin "İki sahil" internet televiziyası da işıqlandırıb.

Qeyd edək ki, "Məktəbdə..." layihəsinin əsas məqsədi şagirdlərə mənəvi-əxlaqi dəyərlərə hörmət və ictimai məsuliyyət hissi aşılamaq, mütaliəyə marağı artırmaq, vaxtın düzgün idarə olunması, mühitə adaptasiya yollarını təbliğ etməkdən ibarətdir.

# "Ailəm və məktəbim"

## Paytaxt məktəblərində yeni layihəyə start verilib

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrində "Ailəm və məktəbim" layihəsinə start verilib.

Layihənin keçirilməsinin əsas məqsədi cəmiyyətin təməlini təşkil edən, dəyərlərini yaşadan ailələr və ümumi təhsil müəssisələri arasında səmərəli əməkdaşlığı təşviq etməkdən ibarətdir.

Layihə çərçivəsində peşəkar mütəxəssislərin iştirakı ilə valideynlər üçün təlim və seminarlar, "Hər şey övladımız üçün" devizi altında tədbirlər təşkil olunacaq.

Həmçinin valideynlərin övladlarının təhsil aldığı müəssisə ilə yaxından tanış olması, onların məktəbin tədris resursları və təhsil müəssisəsində həyata keçirilən layihələr barədə məlumatlandırılması, istər infrastruktur, istərsə də tədris prosesinin təşkilinin təkmilləşdirilməsi istiqaməti üzrə rəy və təkliflərinin əldə edilməsi, qeyri-formal mühitdə məktəbin pedaqoji heyəti və texniki işçi kollektivi ilə ünsiyyət platformasının yaradılması məqsədilə keçirilən "Valideynin məktəbdə bir günü" layihəsinin davam etdirilməsi nəzərdə tutulur.

Bundan əlavə, ixtisaslarına, iş sahələrinə uyğun olaraq valideynlərin həmin sahələrə maraq göstərən şagirdlərlə görüşləri keçiriləcək, maarifləndirici buklet və materiallar hazırlanacaq və paylanacaq.

Valideynlərin təklif və fikirlərinin öyrənilməsi üçün müxtəlif görüşlər və sorğular keçiriləcək, onlar birgə fəaliyyətlərə cəlb olunacaqlar.

Eyni zamanda layihə çərçivəsində ümumi təhsil məktəblərində keçirilən fəaliyyətlər üzrə fərqlənən valideynlərin təltif olunması da nəzərdə tutulub.




# “Azərbaycan məktəbi” jurnalının yeni sayı işıq üzü görüb

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin “Azərbaycan məktəbi” jurnalının 2023-cü ildə ilk nömrəsi “Heydər Əliyev İli”nə həsr olunub. Jurnalın bu nömrəsinin ilk məqaləsi pedaqogika elmləri doktoru, professor İntiqam Cəbrayılovun “Azərbaycan tarixinin Heydər Əliyev mərhələsi: tarixi irsə konseptual baxış” yazısıdır. Məqalədə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi və dövlət xadimi kimi fəaliyyətindən bəhs olunur. Heydər Əliyevin həyatı və fəaliyyəti Azərbaycan tarixinin xüsusi bir mərhələsi kimi təhlil edilir.

Pedaqogika üzrə elmlər doktoru, professor Hümeyir Əhmədovun “Təhsil sisteminin maliyyələşdirilməsi prosesi təhsilin inkişafı üzrə dövlət strategiyasının əsas istiqamətlərindən biri kimi” adlı məqaləsi sözügedən prosesə baxışdan bəhs edir və müqayisəli təhlili ilə diqqət mərkəzində dayanır.

Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsildə məzmun, tədris və qiymətləndirmə şöbəsinin aparıcı məsləhətçisi Afət Süleymanova məqaləsini “Pedaqoji təhsilin məzmun və texnologiyalarının mərhələli təşkilinin yeni modeli və əldə edilmiş nəticələr” mövzusuna həsr edib.

Pedaqogika üzrə elmlər doktoru, professor Piralı Əliyevin “Təhsilalanların narkotik vasitələrdən və psixotrop maddələrdən qorunması üzrə işin təşkili” adlı məqaləsi keçirilmiş sorğuların təhlili əsasında qurulub, nəticələr diaqram və cədvəllərlə təqdim edilib.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı, Bakı şəhəri Nizami Sərxanov adına 256 nömrəli tam orta məktəbin coğrafiya müəllimi Günəş Abbasovanın “ICILS Beynəlxalq Qiymətləndirmə nəticələrinin təhlili və təhsilin idarə olunmasında rolu” başlıqlı məqaləsi ICILS Beynəlxalq qiymətləndirmə sistemi haqqında söhbət açır. Şagirdlərin XXI əsrin tələblərinə uyğun kompüter və informasiya sahəsi üzrə bilik və bacarıqlarını, bu bacarıqlara yiyələnmək üçün lazım olan ev və məktəb mühitini qiymətləndirməyə imkan verən sistemin nəticələrindən səmərəli istifadə yollarını göstərir.

Azərbaycan Respublikasının Əməkdar müəllimi, pedaqogika elmləri doktoru, dosent Kamal Camalov jurnalın bu sayında “Tədris işinin təşkilində didaktik konsepsiya və paradiqmaların öyrənilməsi yolları” adlı məqalə təqdim edib.

Bakı-Fransız Liseyi Təhsil Kompleksinin Azərbaycan dili və ədəbiyyat müəllimi Fidan Sarıbəyli “Universitet muxtariyyəti: maliyyə, akademik və inzibati perspektivdən yanaşma” başlıqlı məqaləsində akademik dünyanın rasional və rəqabətli təbiətinin əsasını təşkil edən universitet dünyasının muxtariyyətinin təhsilin inkişafına təsirindən danışır.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin fizikanın tədrisi texnologiyası kafedrasının doktorantı Cavid Tapdıqlı “VII sinifdə fizikadan qüvvəyə aid bəzi mövzuların tədrisində virtual laboratoriya işlərindən istifadə texnologiyası” haqqında məqalə təqdim edib.

Filologiya üzrə fəlsəfə doktoru, Bakı Mühəndislik Universitetinin Azərbaycan dili və pedaqogika kafedrasının dosenti Zabitə Teymurlunun “Effektiv təqdimatın linqvistik, psixolinqvistik meyarları və nitqin strukturu” adlı məqaləsində fikrin düzgün çatdırılmasında bu meyarlardan düzgün istifadə yolları araşdırılır.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycan uşaq ədəbiyyatında obrazı filologiya üzrə fəlsəfə doktoru, dosent, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi katibi Aygün Bağırlının “Azərbaycan uşaq şeirində Heydər Əliyev obrazı: tarixi gerçəkliyin bədii inikası” məqaləsinin əsas qayəsini təşkil edir.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru, filologiya elmləri doktoru Yaqub Babayevin “Tuyuğ: janrın təşəkkülü, təkamülü və klassik poeziyada mövqeyi” məqaləsi diqqəti cəlb edir. Burada təxminən XII-XIII əsrlərdə formalaşmış, XIV əsrdə türkdilli poeziyada yetkin nümunələri ilə zəmanəmizə qədər gəlib çatmış, əruz vəznində yazılmış nümunələrdən bəhs olunur.

Filologiya üzrə fəlsəfə doktoru, ADPU-nun filologiya fakültəsinin ədəbiyyatın tədrisi texnologiyası kafedrasının baş müəllimi Ülkər Baxşıyeva maraqlı bir mövzuya toxunub: “Nizami Gəncəvi yaradıcılığında təlim-tərbiyə, əxlaqi-didaktik məsələlər və ənənə problemləri”. Məqalədə Nizami yaradıcılığının qayəsini təşkil edən humanizm və kamil insan fəlsəfəsinin mahiyyəti və onun tərbiyə məqamlarındakı rolu araşdırılıb.

Pedaqoji elmlər doktoru, professor, ADPU-nun İbtidai təhsilin pedaqogikası kafedrasının müdiri, Əməkdar elm xadimi Fərrux Rüstəmovun “Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şuşa filialı (1989-1992-ci illər)” məqaləsi filialın fəaliyyətinə həsr edilib.

Qeyd etmək lazımdır ki, elmi-nəzəri və pedaqoji nəşr kimi “Azərbaycan məktəbi” jurnalı 1924-cü ildən Azərbaycan, ingilis, türk və rus dillərində nəşr olunur. Təhsil idarəçiliyi, təhsil fəlsəfəsi və təhsil nəzəriyyəsi, təhsil siyasəti, kurikulum, təhsil texnologiyaları, pedaqogika, təhsilin sosiologiyası, təhsil tarixi, xüsusi təhsil, muəllim hazırlığı, qiymətləndirmə və s. tədqiqat sahələri üzrə milli təhsil sisteminin bütün pillələrini əhatə edən orijinal məqalələr, təhsillə bağlı yerli və xarici nəşriyyatlarda çap olunan kitablar haqqında icmallar jurnalın səhifələrində yer alır.

Jurnalın yeni sayı ilə aşağıdakı keçiddən tanış ola bilərsiniz:

**https://as-journal.edu.az/uploads/files/2023/04/az-mektebi-n1-2023.pdf**

# Alimliklə insanlığın vəhdəti



Bu gün onun vəfatından 40 gün ötür. Yer kürəsi 40 gündür ki, Eldar Qocayevsiz fırlanır. Görəsən bu yoxluğu dünyamız da hiss edirmi? Zənnimcə, ata-babalarımızın dediyi kimi, yaxşı adamların çiynində dayanan dünya bunu çox aydın hiss edir. Altından bir xeyirxah, nəcib çiynin əskildiyini hiss etdiyi üçün daha surətlə fırlanmağa başlayıb, 40 gün çox tez keçdi...

Onun rəsmi tərcümeyi-halı belədir: Qocayev Eldar Mehralı oğlu 1944-cü il dekabr ayının 10-da Qərbi Azərbaycanın Karvansara (sonralar İcevan rayonu adlandırılmışdı) rayonunun Göyərçin kəndində anadan olmuş, 2023-cü il martın 11-də Bakı şəhərində vəfat etmişdir. Bir qədər ətraflı yazmaq istəsək belə əlavə də mümkündür: Birinci sinfə həmin kənddə getmiş, 2-7 siniflərdə qonşu Salah kəndində təhsil almış, 1962-ci ildə İcevan rayonu Polad kənd orta məktəbini bitirmiş, 1962-1967-ci illərdə Azərbaycan Dövlət Universitetinin Fizika fakültəsində təhsil almışdır. 1967-1972-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyası Fizika İnstitutunda işləmiş, 1972-ci ildə həmin institutda “Mürəkkəb-çoxkomponentli yarımkeçirici birləşmələrin alınması və tədqiqi” mövzusunda namizədlik, 1985-ci ildə isə “sp və 4f elementləri əsasında mürəkkəb yarımkeçiricilərin elektron və istilik xassələri” mövzusunda doktorluq dissertasiyasını müdafiə etmiş, 1987-ci ildə fizika üzrə professor elmi adına layiq görülmüşdür.

Eldar Qocayev Qaraqoyunlu dərəsində fizika sahəsində ilk elmlər doktoru elmi dərəcəsi almış şəxsdir.

1973-1990-cı illərdə Azərbaycan Neft Kimya İnstitutunun Sumqayıt filialında əmək fəaliyyətinə başlamışdır. 1976-cı ildə institutun fizika kafedrasının yaradılmasında fəal iştirak edərək 1990-cı ilə qədər həmin kafedraya rəhbərlik etmişdir. Onun rəhbərliyi ilə kafedranın nəzdində ən müasir tədqiqat işləri aparmağa imkan verən elmi-tədqiqat və tədris laboratoriyaları yaradılmış və həmin dövrdə 3 elmlər namizədi hazırlanmışdır. Həmin alimlər hazırda Sumqayıt Dövlət Universitetində müxtəlif vəzifələrdə çalışırlar.

1987-1990-cı illərdə Sumqayıt filialının elmi və tədris işləri üzrə prorektoru, 1989-cu ildə isə rektor əvəzi işləmişdir.

Sumqayıt şəhərində işlədiyi dövrdə yeni ixtisasların açılmasında, yüksəkixtisaslı kadrların hazırlanması istiqamətində böyük işlər görmüşdür. İşdə göstərdiyi xüsusi xidmətlərinə görə Sov.İKP MK, SSRİ Nazirlər Soveti və SSRİ Həmkarlar Təşkilatının fəxri fərmanına layiq görülmüşdür.

1990-1997-ci illərdə Azərbaycan Dövlət Neft Akademiyasında ixtisaslaşmış fakültənin dekanı işləmiş, 1997-ci ildə Azərbaycan Texniki Universitetinin (AzTU) fizika kafedrasının müdiri seçilmiş və 2021-ci ilin fevral ayına qədər həmin kafedraya rəhbərlik etmişdir.

Onun rəhbərliyi ilə fizika üzrə 31 fəlsəfə doktoru, 2 fizika-riyaziyyat elmləri doktoru, 1 texnika elmləri doktoru və 1 pedaqoji elmlər doktoru dissertasiyaları müdafiə olunub. O, vəfatından öncə 2 elmlər doktorunun, 5 fəlsəfə doktorunun və 1 dissertantın elmi rəhbəri idi.

Struktur dəyişikliyi ilə əlaqədar AzTU Elmi Şurasının 09.02.2021-ci il tarixli qərarı ilə universitetdə elektronika və fizika kafedraları birləşdirilərək yeni kafedra - mühəndis fizikası və elektronika kafedrası yaradılmış və həmin kafedraya rəhbərlik Eldar Qocayevə həvalə edilmişdir.

Fizika sahəsində 555-dən artıq elmi əsərin, 20 dərsliyin və dərs vəsaitinin, 8 patentin və ali texniki məktəblər üçün “Ümumi fizika kursu” fənn proqramının müəllifidir. 360-dan çox elmi məqaləsi xarici ölkələrin nüfuzlu jurnallarında çap olunmuşdur.

O, 2004-cü ildə Azərbaycan Respublikası Qabaqcıl Təhsil İşçisi döş nişanı ilə təltif olunmuş, 2007-ci ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Əməkdar Elm Xadimi fəxri adına layiq görülmüşdür.

Bu tərcümeyi-halı sadəcə 1944-2023 də yazmaq olar. Ancaq bu iki tarix arasındakı kiçik tirenin müddətində o, şərəfli, ləyaqətli, uzun və mənalı bir ömür sərgiləmişdir. Bəli, məhz sərgiləmişdir, gələcək nəsillər necə yaşamaq lazım olduğunu öyrənmək istəsələr, Eldar Qocayev sərgisinə tamaşa edə bilsinlər deyə. Bu sərgidə dünyanın cənnət, ancaq əl-ayaqdan uzaq bir guşəsində - Qərbi Azərbaycanın Qaraqoyunlu dərəsinin Göyərçin kəndində dünyaya göz açmış bir körpənin yavaş-yavaş böyüməsinin, həm də fiziki artımından çox mənəvi yüksəlişinin şahidi ola bilərlər. Kənddəki yaşıdlarından da, sinifdə də, universitetdə də hamıdan ucaboylu, hündür olan bu oğlan mənəvi baxımdan, zəka və təfəkkür cəhətdən daha yüksək idi.

Analitik düşüncəsi, dəqiq mühakiməsi ilə seçilən Eldar məndən iki yaş böyük idi, ancaq uzun müddət, lap yetkinlik yaşına çatana kimi elə düşünürdüm ki, Eldar 10-15 il böyükdür. Çünki bütün davranışı, ağırlığı, yerişi, duruşu, söhbətləri bunu diqtə edirdi.

Doktorluq dissertasiyasını da hamımızdan əvvəl, 40 yaşında müdafiə etdi. Qohumların arasında birinci professor, ilk kafedra müdiri, hamıdan qabaq prorektor, rektor da Eldar müəllim olub. Ancaq hamıdan əvvəl saçları ağaran, yaşından qabaq qocalan, ömrünün son iki ilində isə sağalmaz xəstəliyə tutulan da o oldu.

Bir zamanlar dissertasiya işi ilə əlaqədar yeni tərkibli kristalları sintez edib monokristal almağa çalışan Eldar müəllim alimliklə insanlığın sintezindən bir Eldar Qocayev fenomenini, bütöv bir şəxsiyyəti formalaşdırmağı daha məharətlə bacarıb. Məhz bunun nəticəsidir ki, onu təmin etməyən iş üslubu, sağlam olmayan mühit görəndə vəzifəsini də, kabinetini də, imtiyazlarını da qoyub, papağını (qeyrətini) götürüb çıxmağı bacarıb.

Ən çox dostu olan, insanların səmimi rəğbətini qazanan, uşaqdan böyüyə kimi hər kəslə münasibət qurmağı bacaran, bununla yanaşı haqsızlığa, ədalətsizliyə barışmaz olub vəzifəsindən, titulundan, mənsəbindən asılı olmayaraq bütün səlahiyyət sahiblərinə haqq sözünü deyən də Eldar müəllim olub. Ən təvazökar adam, ən zəhmətkeş alim, ən işgüzar kafedra müdiri, ən məsuliyyətli müəllim, ən qayğıkeş ailə başçısı, ən mehriban baba, ən kamil insan soruşsalar onu göstərərdilər.

Doğma dayısı oğlu və qaynı kimi 15 il Təhsil naziri işlədim, bir dəfə qapımı döyüb nə isə xahiş etmədi, heç çox adam bilmədi ki, Eldar müəllim nazirin bibisi oğlu və uşaqlıq dostudur. 50-60 illik dostluq, ikiqat qohumluq, bu qədər yaxınlıq münasibətlərimizə baxmayaraq məndən də uzaq gəzdi ki, birdən kimsə Eldarın vəzifə sahibi qabağında dəyişdiyinin şahidi olar. Başqalarının min hoqqadan çıxdığı bu dünyada Eldar Qocayev sadə və təmtəraqsız, ancaq kişi kimi yaşamağa üstünlük verdi. Yəqin ki, başqa cür olsaydı professor Eldar Qocayevin vəfatı bu qədər insanı sarsıtmazdı. Yəqin ki, başqa cür olsaydı Eldar ürəklərdə bu qədər əziz tutulmazdı, dəfninə yüzlərlə, minlərlə adam qatılmazdı.

Bu gün çox qısa görünən, ancaq gördüyü əməllərə, çatdırdığı işlərə, qazandığı dostların sayına görə uzun olan ömrünün pillə-pillə yüksəldiyi ucalığında müqəddəs abidəsini yaradıb. Professor, Əməkdar elm xadimi, gözəl insan, “vicdanını ovuclara sağmayan”, əyilməz və ləyaqətli Eldar Qocayev abidəsi! Onu tanıyan hər ürəkdə bu abidənin bir filialı yaşayır. Zənnimcə, hələ uzun illər də yaşayacaq. Professor Eldar Qocayevin parlaq xatirəsi kimi!

**Misir MƏRDANOV,**
*AMEA-nın müxbir üzvü*

Türkiyənin tanınmış uşaq yazıçısı Suat Turqutun ssenari müəllifi olduğu “Yaxşılıq ağacı” hekayələri və onların əsasında hazırlanmış cizgi filmləri Azərbaycan dilində məktəblilərə təqdim edilib. Milli-mənəvi dəyərlərin təbliğinə həsr edilmiş bu hekayələrin bir qismi, əslində, illərlə hamımızın əzbər bildiyi klassik təmsil və hekayələr əsasında yazılsa da, tamamilə dekonstruksiya edilərək insanlıq üçün vacib dəyərlərin aşılanmasına, gənc nəslin sevgi, hörmət, ədalət, xoşbəxtlik, dürüstlük, bütövlük, özünəinam kimi vacib dəyərlərlə formalaşmasına xidmət edir. “Qarğa və tülkü” təmsilini hamımız yaxşı bilirik. Qarğanı aldadaraq pendiri əlindən alan tülkü orijinal mətndə əsərin qəhrəmanı kimi təqdim edilir. “Olmasa idi cahanda sarsaqlar, ac qalardı, yəqin ki, yaltaqlar” - deyib qarğanı həm aldadır, həm alçaldır. Amma müəllifin yenidən həyat verdiyi hekayədə əsərin sonu dəyişdirilərək tülkü qarğa tərəfindən tənbeh edilir, etdiyi hərəkətin yaxşı olmadığı vurğulanır, çünki tülkü kimilər çox olsa, heç kim heç kimə yaxşılıq etməz, kimsəyə inam qalmaz - bu isə insanlığı faciəyə aparar.



# Doqquz cizgi filmi uşaqlara təqdim edildi

Tülkü etdiyi səhvi anlayır və pendiri qarğaya qaytarır, bunun müqabilində qarğa da öz pendirini tülkü ilə bölüşür və onlar dost olurlar. Bu hekayədə dürüstlük uşaqlara önəmli duyğu kimi təqdim edilir.

Cəmiyyətimizin, yetişməkdə olan gəncliyin bu cür dəyərlərə ciddi şəkildə ehtiyacı var.

Digər tərəfdən etiraf edək ki, uşaqlar üçün Azərbaycan dilində cizgi filmlərimiz yox dərəcəsindədir - onlar başqa dillərdə, mənşəyi bəlli olmayan ideologiyalarla hazırlanmış internet resursları ilə böyüyürlər. Onun üçün də Təhsildə inkişaf və innovasiyalar üzrə VI Qrant müsabiqəsi əsasında Xırdalan şəhər 7 nömrəli tam orta məktəbin Azərbaycan dili müəllimi Zülfiyyə Sadıqovanın rəhbərliyi ilə 9 hekayə və cizgi filmi Azərbaycan dilinə uyğunlaşdırılıb, məktəbin 200-ə yaxın 5-ci sinif şagirdi ilə 6 ay müddətində işlənib. Layihə əsasında şagirdlər hekayələri oxuyub, filmlərə baxıb, müzakirələr aparıb, dəyərlərin əhəmiyyətini bir daha dərindən dərk ediblər.



Layihənin yekununda şagirdlər hekayələrin və ssenarilərin müəllifi, tanınmış uşaq yazıçısı Suat Turqutla görüşüb, onlara hədiyyə edilmiş kitablarını imzaladıb, müzakirələr aparıblar.

Aprelin 15-də “Yaxşılıq ağacı” layihəsinin bağlanış mərasimi keçirilib. Kitablar, cizgi filmləri, şagirdlərin bu altı ay müddətində əldə etdikləri bilik və bacarıqları təhsil ictimaiyyətinə təqdim edilib.

Elm və Təhsil Nazirliyinin ayırdığı qrant əsasında həyata keçirilən bu layihəyə Mənəvi Dəyərlərin Təbliği Fondu və “Mədəniyyət” telekanalı da öz dəstəyini əsirgəməyib. Fondun dəstəyi ilə nəşr edilən Şəmil Sadiqin müəllifi olduğu 200 ədəd “Dəyərlər” kitab dəsti şagirdlərə hədiyyə edilib, Azərbaycan dilinə tərcümə edilən filmlər “Mədəniyyət” TV-nin efirində nümayiş olunub.

Bağlanış mərasimində Zülfiyyə Sadıqova müəllifi olduğu layihə haqqında hesabat verib, şagirdlərlə birgə hazırladığı səhnəciyi, kiçik interaktiv dərsi təqdim edib. Yaradılan şəraitlə bağlı Elm və Təhsil Nazirliyinə təşəkkür edən layihə müəllifi gələcəkdə də bu cür müsabiqələrin müəllim və şagirdlərin inkişafında mühüm rol oynayacağına əmin olduğunu vurğulayıb.

Cizgi-romanların müəllifi Suat Turqut, Milli Dəyərlərin Təbliği Fondunun rəhbəri Mehman İsmayılov, Xızı-Abşeron Regional Təhsil İdarəsinin müdiri Rahim Novruzov və əməkdaşları, Hədəf Şirkətlər Qrupunun baş direktoru Şəmil Sadiq, Abşeron rayon 7 nömrəli tam orta məktəbin direktoru Yeganə Paşayeva, məktəbin layihədə fəal iştirak etmiş şagird və müəllim heyəti, eləcə də valideynlər, “Hədəf” kurslarının icraçı direktoru Səftər Əlisəfa, Masazır şəhər 5 nömrəli tam orta məktəbin direktoru Səlim Məmmədov və digər qonaqlar tədbirin sonunda çıxış edərək layihənin önəmi, gələcək nəslə faydası və s. haqqında fikirlərini bölüşüblər.

Layihəyə dəstək verən özəl qurumlar - “XAN Nəşriyyatı”, “Hədəf Nəşrləri”, “Sinkod” dağıtım və yayım şirkəti tərəfindən şagirdlərə müxtəlif kitablar, məktəb ləvazimatları hədiyyə olunub.

**Səbinə ABDULLA**

# "Elmi işlər üçün can yandırmalıyıq"




## Nobel mükafatı laureatı Benjamin List:

## "Təşəbbüskarlıq təkcə alimlər üçün deyil, hamımız üçün ən vacib hərəkətverici qüvvədir"



⇦ Əvvəli səh.1

*– Kimyaya olan həvəsiniz haradan qaynaqlanır?*

– Düşünürəm ki, mən, ümumiyyətlə, uşaqlıqdan bir növ hər şeyə maraq göstərən, çox həvəskar bir insan olmuşam. Kimyaya olan bu ehtiras məndə həqiqətən uşaq olanda, təxminən 11 yaşımda yaranmışdı. Etiraf etməliyəm ki, kimyaçıların hər şeyi bildikləri, kainatı, ətrafdakı dünyanı və hər şeyi başa düşdükləri, ən maarifpərvər varlıqlar olmaları barədə səhv bir təsəvvürüm var idi. Təbii ki, hazırda fiziklər həmişə məni bu yanlış anlayışa görə ələ salırlar, çünki onlar dünyanı anlayan, dərk edənlərin məhz fiziklər olduğunu düşünürlər. Bu da doğru deyil, çünki nə kimyaçılar, nə də fiziklər dünyanı və kainatı həqiqətən dərk etmirlər və mənim 11 yaşımda verdiyim vacib suallara cavabları yoxdur. Hər halda, mən kimyaya uşaqlıqdan aludə oldum. Cavabları orada almadığımı başa düşdükdə artıq çox gec idi və mən kimyaya bağlandım və onu sevdim. Silah tozları və buna bənzər əşyalar üçün barıt hazırlamağı çox sevirdim. Bilirsiniz, bunlar adi hekayələrdir.

*– Gələcəyin gənc perspektiv tədqiqatçılarına nə məsləhət görərdiniz?*

– Məsləhətim odur ki, öz həvəsinizin dalınca gedin. Bu, mənim bir nömrəli məsləhətimdir. Mən bunu həmişə hamıya deyirəm. Mən həmişə böyük bir kəşf edə biləcəyimə ümid etmişəm. Bu elm dünyasında çoxumuz bunu xəyal edirik və bəlkə də beynimizin dərinliklərində gizli olaraq nə vaxtsa Nobel mükafatı almağı arzu edirik. Həqiqətən elmlə maraqlanırsınızsa və bu sahədə real təsir bağışlayırsınızsa, o zaman bilməlisiniz ki, inqilabi bir fikrə sahib olduğunuz zaman özünüzü tam elmə aid hiss etməlisiniz. 10 faiz tədqiqatçı var ki, postdoktoranturasını bitirdikdən sonra müstəqil tədqiqatlarına başlayır. Onlarda belə bir tendensiya var. "Hər kəsin etmək istədiyini etmək istəyirəm. Mən cəmiyyətin bir hissəsi olmaq istəyirəm", amma bu yaxşı deyil. Deyərdim ki, elmi inqilablar etmək üçün dözə bilməli olduğun tənhalığı ağlında saxlamalısan.

*– Sizcə, bu tənhalığın öhdəsindən gəlməyinizə nə səbəb oldu?*

– Mən bilmirəm. Deməliyəm ki, karyeramın ilk günlərində müəyyən bir məqamda həqiqətən qorxmuşdum. Mən olduqca əsəbi idim. Mənə elə gəlirdi ki, hazırda dünyada bu cür araşdırma aparan yeganə şəxs mənəm. Və sonra təbii ki, sual yaranır: "Bu, hamının daha ağıllı olması və bunun yaxşı fikir olmadığını bildiyinə görədir, yoxsa mənim izlədiyim elmi, inqilabi konsepsiyadır?". Demək istəyirəm ki, tənhalıq hiss etmək üçün inqilabi fikrin varsa, bunun tələb olunan şərt olduğunu da bilməlisən. Həqiqətən deyərdim ki, kifayət qədər şərtdir. Bir çox insanlar axmaq fikirlərə sahib olduqları üçün özlərini tənha hiss edirlər. Mənim vəziyyətimdə uğur bu qədər erkən gəldiyi üçün həqiqətən bəxtim gətirdi. Bu, mənim ilk müstəqil elmi təcrübəm idi. Maraqlıdır, əgər ilk bir neçə ay uğur baş verməsəydi, bu riskli mühitdə bilmirəm nə qədər qala bilərdim.

*– Sizcə, uğurlu alimlərə hansı keyfiyyətlər lazımdır?*

– Maraq vacibdir. Biz həqiqətən də etdiyimiz elmi işlərə görə can yandırmalıyıq. Təşəbbüskarlıq, qeyd etdiyim kimi, təkcə alimlər üçün deyil, hamımız üçün ən vacib hərəkətverici qüvvədir. Və bəli, elmə ehtiras vacibdir. Mən eyni zamanda açıq düşünürəm. Çünki dünyanı və kainatı formalaşdıran və ya yaradan biz deyilik, biz onu anlamağa çalışırıq. Beləliklə, sürprizlərə bir az açıq olmalıyıq və yeni ideyaları reallığa sırımamalıyıq. Bu yanaşma işləməyəcək.

*– Siz tez-tez komandanız haqqında danışırsınız. Mükafata layiq görüldükdən sonra sizi təbrik edən komanda üzvlərindən hər birini qucaqladınız. Əməkdaşlıq və komanda işi nə dərəcədə vacibdir?*

– Komanda, əlbəttə ki, çox vacibdir. Tələbələrimlə bu cür əlaqəni sevirəm. Bu iyerarxiyanı mümkün qədər aşağı səviyyədə saxlamağa çalışıram. Onlar gəlib mənimlə müzakirə aparmaqdan heç vaxt çəkinməməlidirlər. Bu, çox vacibdir. Mən həmişə deyirəm və sözün əsl mənasında baş verənlər də bunu göstərir, mənim qapım onlar üçün həmişə açıqdır və mənə meydan oxumalarını istəyirəm. Maraqlıdır, bu, hətta almanlar üçün bir az səciyyəvi olan bir şeydirmi ki, sizin tələbələrinizin, tutaq ki, iş yoldaşlarınızın sizi müdir kimi tənqid etməsi?.Düşünürəm ki, bu, bizim mədəniyyətimizin bir hissəsidir. Bu, bəzi Asiya ölkələrində bir az fərqlidir, məsələn, heç vaxt yüksək vəzifəli şəxsi tənqid etməyəcəksiniz. Amma məncə, sonda bu, yaxşı bir şeydir. Elmi yaxşılaşdırır. Həmişə özümüzə qarşı tənqidi olmalıyıq. Bu, əvvəl söylədiyimlə sıx əlaqəlidir: ideyalarınızı reallığa qəbul etdirə bilməzsiniz. Reallıq sizə həmişə həqiqəti deyir.

*– Necə düşünürsünüz, biz elmdə müxtəlifliyi təşviq edə bilərik?*

– Səbəbini bilmirəm, amma hazırda laboratoriyamda demək olar ki, qadınların çoxluq təşkil etdiyi hiss olunur. Düşünürəm ki, bu, özünü təşviq edir. Əgər sizin bir qrup qadın həmkarınız varsa, o zaman digər qadınlar da elmə müraciət etməyə cəsarət edir. Karyeram boyu heyrətamiz qadın tələbələr, aspirantlar və postdoktorantlarla əlaqə qurmaq şansım oldu. Ümumiyyətlə, mənim fikrim budur ki, biz mümkün qədər tez başlamalıyıq. İlk növbədə, hətta başlamazdan əvvəl düşünməliyik ki, biz niyə müxtəlifliyi istəyirik? Müxtəlifliyi istəməyimizin səbəbi nədir? Bəziləri ədalətə görə deyir, amma mən bu arqumentlə razı deyiləm. Burada Maks Plank cəmiyyətində və ya mükəmməllik üçün getdiyimiz bütün ən yaxşı universitetlərdə məqsədimiz, əlbəttə ki, ən yüksək səviyyəli elmi inkişaf etdirməkdir. Və bunu necə edirik? Yalnız kiçik bir hissəyə deyil, ideal olaraq planetdəki bütün beyinlərə toxunmaqla. Ona görə də təbii olaraq müxtəlifliyə ehtiyacımız var. Biz elmdə bütün insanların müxtəlifliyini təmsil etməliyik, çünki ideyalar istəyirik. Elmə düşmək imkanı olmayan, sonra başqa bir şeyə çevrilən istedadlar arasında itməmək. Ona görə də mən elmdə müxtəlifliyin tamamilə tərəfdarıyam. Məsələn, uşaq bağçası məndən soruşanda ki, gəlib bizim uşaqlarla danışa bilərsənmi, mən gedirəm. Mən məktəblərdə mühazirə oxumağı sevirəm. Mən yerli gimnaziyaya getdim - bu, Almaniyadakı orta məktəbə bənzəyir. Mən 300 nəfər IX sinif şagirdi qarşısında çıxış etdim. Və sonradan onlardan ikisi bizə qoşuldu. Onlar 14, 15 və ya 16 yaşlı qızlar idi, həqiqətən istedadlı idilər. Dedim ki, biz niyə kiçik bir elmi layihə hazırlamırıq. Siz onsuz da onlarda elm qığılcımını işıqlandırmaq üçün tətil zamanı bir neçə həftə və ya həftədə bir neçə gün onsuz da onlarda elm qığılcımını işıqlandırmaq üçün buraya gəlirsiniz. Onlar bilirlər ki, əslində bu edə biləcəyim bir işdir. Mənim buna yanaşmam belədir. Ancaq düşünürəm ki, qadınların tədqiqat işinə cəlb olunmasına biz spektrin sonunda başlamamalı və sadəcə işə götürmə kvotasına malik olmalı deyilik, məsələn, mən bunun böyük pərəstişkarı deyiləm.

*– Deyəsən, müəllim olmaqdan çox zövq alırsınız. Bir az danışa bilərsinizmi, nəyi öyrətməyi çox sevirsiniz?*

– Ən çox bəyəndiyim şey, həqiqətən, elmə olan ortaq həvəs, təşəbbüskarlıqdır. Ona görə də gördüyüm işlərə həvəslə yanaşıram və bu barədə tələbələrimə danışıram. Sonra tələbələrimizin gözlərindəki işığı görürəm və görürəm ki, vay, həyəcanlanırlar. Və bu, Berlində bakalavr tələbəsi olanda müəllimlərimlə yaşadıqlarımla eynidir. PhD dərəcəsini aldığım professorum Johann Mulzer həmişə çox rahat idi, amma bu insan elə bir hissə sahib idi ki, bu, kainatda edə biləcəyiniz ən həyəcanverici şey kimidir. Onun bunu necə etdiyini bilmirəm. Biz onun deyəcəyi hər sözə bağlı idik. Bəzən təsadüfən sual verir, sonra ən ağıllı tələbələr cavab verirdi. Mən də rəqabətədavamlı tələbə olaraq rahat və ağıllı cavablar vermək istəyirdim. Bu, məni üzvi kimyaya gətirdi. Ona görə də bir müəllim kimi bilirəm ki, biz çox şey edə bilərik. Biz həqiqətən də tələbələrdə elmə maraq oyada bilərik.

*– Rəqabətli olmaqdan danışsaq, boş vaxtınızı necə keçirməyi xoşlayırsınız? Bu gün hər hansı idmanla məşğul olursunuz?*

– Biz Mülheimdə çox köhnə tennis klubunun qarşısında yaşayırdıq və həyat yoldaşım və iki oğlum orada tennis oynayırdı. Bir müddət sonra "bəlkə, mən də bir az oynayım?" dedim və onlar da məni tennisə həvəsləndirdilər. Beləliklə, tennis oynamağa başladım, düşünürəm ki, bu, bəlkə də 10 il bundan əvvəl baş vermişdi. İndi isə bundan həzz alıram. Həftədə bir dəfə oynayıram və çox əyləncəlidir. Mən də səhərlər bədən hərəkətləri kimi çoxlu yoqa edirəm və bundan da bir qədər həzz alıram. Bu, insanı çevik, gənc, ağıllı və açıq saxlayır. Ona görə də hər gün təzə fikirlərə açığam. Düşünürəm ki, bu, yoqadan irəli gəlir.

*– Siz Amsterdamda kafedə olanda Nobel mükafatınızla bağlı zəng almışdınız, elə deyilmi? Bu barədə bizə məlumat verin, siz və ailəniz kafedə idiniz?*

– Bu, həqiqətən də çox xoş bir hadisə idi. Həyat yoldaşım və mən Amsterdamdakı məşhur konsert salonunda möhtəşəm bir konsertə getdik. Məşhur dirijor Currentzisin konserti idi. Berlində tələbə olanda həmişə Berlin Filarmoniyasına gedirdim. Klassik musiqini həmişə sevmişəm. O vaxt 5 markaya ucuz tələbə biletləri var idi. Bu musiqidən hələ də zövq alıram. Beləliklə, Amsterdama bir günlük səyahət etdik. Dünən gecə dəbdəbəli restorana, sonra konsertə getdik və ertəsi gün həyat yoldaşım dəbdəbəli kafe seçdi. Biz əla səhər yeməyi yeyəcəkdik ki, birdən telefon zəngi gəldi.

*– Nobel mükafatına layiq görüldüyünüz xəbərini aldıqdan sonra həmkarınız David Makmillan ilə əlaqə saxladınız. Bu barədə bir az məlumat verə bilərsinizmi? Orada nə baş verdi?*

– Yaxşı, nə olduğunu bilirsən, elə deyilmi? Mətbuat konfransından 45 dəqiqə əvvəl sizə zəng edirlər və 45 dəqiqə həyatınızın son 45 dinc anıdır. Fikrim budur, elə deyilmi? Sənə xəbəri belə verirlər. Amma mənim vəziyyətimdə bu belə deyildi, çünki Göran Hansson (Nobel mükafatları komitəsinin sədri, laureatlara qalib xəbərlərini ilk olaraq o çatdırır) 10 dəqiqə sonra mənə yenidən zəng edib dedi: "Professor List, professor Makmillanın telefon nömrəsi təsadüfən sizdə varmı? Mən ona zəng edə bilmirəm". Xoşbəxtlikdən nömrə məndə var və nömrəni ona verdim, lakin sonra mən də professor David Makmillana "Deyv, oyan" məzmunlu mesaj göndərdim. Bir dəqiqə sonra o, mənə zəng edir. O, ABŞ-ın şərq sahilində gecənin ortasında olduğu üçün bir az yorğundur.

Mən ona deyirəm, çünki professor Hansson mətbuat konfransından əvvəl telefon danışığının məzmunu barədə heç kimə danışmamalı olduğumu söyləmişdi: "Deyv, indi mənə Stokholmdan vacib zəng gəldi. Onlar da sizə zəng etməyə çalışdılar. Odur ki, telefonu götürsəniz yaxşı olar". O isə deyir: "Xeyr, üzr istəyirəm, Ben. Mən bunun real olduğunu düşünmürəm. Məncə, bu, zarafatdır. Qrupumda tələbələrim var. Həmişə mənimlə bu zarafatları edirlər. Və səni ruhdan saldığım üçün çox üzr istəyirəm". Bir anlıq bir az çaşdım, bəlkə də düz deyir. Amma mən ona dedim: "Yaxşı, bu oyundursa, bu, həqiqətən yaxşıdır. Demək istəyirəm ki, onların səsi təqlid edənləri var və onlar həqiqətən nə etdiklərini bilirlər". Biz telefonu bağladıq və o, başqa bir mesaj göndərdi: "Ben, həqiqətən üzr istəyirəm, amma bu oyundur. Bunun baş verməsinə qarşı min dollar mərc edirəm". Mən də dedim: "Yaxşı, götürürəm". O, hələ də mənə min dollar borcludur.

*– Xəbəri aldıqdan sonra laboratoriyanıza qayıdanda sizi rok ulduzu kimi qarşıladılar. Bu hiss və baş verənlər haqqında bir az məlumat verə bilərsinizmi?*

– Bu barədə danışanda ürəyim titrəyir. Bu, həqiqətən də həyatımın ən gözəl anlarından biri idi. Və o qədər gözəl idi ki, biz Amsterdamda idik, buradakı insanların bu uğuru qeyd etmələri üçün zaman var idi. Beləliklə, həmkarım Ferdi Schüth, bizim idarəedici direktorumuz, düşünürdü ki, biz nə edə bilərik? İlk növbədə, yerli mağazalarda əldə edə bildikləri bütün şampanları, 113 şüşə aldılar, olanların hamısı bu idi. Hamısını içdik, sonra təbii ki! Amma onun başqa bir fikri də var idi: bütün tələbələr laboratoriya paltarlarını geyinib eyvana çıxırlar və mən gələndə hamısı əl çalacaqlar və bu, həqiqətən də işə yaradı. Bizim institut belə şeylər üçün o qədər də uyğun yer deyil. Lakin əməkdaşlarımız, tələbələrimiz orada bol sevinc, xoşbəxtlik və həyəcan gətirdilər. Onlar mənim necə həyəcanlandığımı gördülər. Gözəl olan həm də o idi ki, burada təkcə mənim qrupum və ya sadəcə alimlər deyil, institutdan demək olar ki, hər kəs iştirak edirdi. Və bu, elmi dəstək qruplarına məmnunluq hissi verdi. İnstitutun bütün texniki işçiləri, bağbanlar, inzibatçılar, hamısı çox həyəcanlı idilər. Nəhayət, biz bu illər ərzində apardığımız işlərin bəhrəsini görürük. Həqiqətən heyrətamiz bir gün idi. Bunu heç vaxt unutmayacağam, o an üçün Nobel Fonduna sonsuz minnətdaram.

*– 2004-cü ildə siz və ailəniz sunami zamanı Taylandda olmusunuz və oğlunuz itkin düşəndə dəhşətli anlar yaşadınız. Bu cür yaşantılar insanın həyata baxışını dəyişir. Bu hadisə sizə necə təsir etdi və bunun nəticəsində həyat perspektiviniz necə dəyişdi?*

– Maraqlı sualdır. Məsələ burasındadır ki, biz hamımız obyektlərə can atırıq, buna başqa nə ad verəcəyimi bilmirəm. Kimsə Ferrari, Nobel mükafatı, əla iş və ya mükəmməl tərəfdaş istəyə bilər. Və düşünürük ki, bunlar, mən onlara obyekt deyirəm, bizi sevindirəcək. Bəs həyati təhlükəsi olan bir vəziyyətdə olduğunuzda, məsələn, görəsən, bəzən təcili yardım şöbələrində olan xəstələr kifayət qədər hava almadıqlarım necə hiss edirlər? Tamamilə fərqli bir baxış perspektiviniz var, birdən sizi nə xoşbəxt edəcək? Və başa düşürsən ki, artıq nəfəs almaq qabiliyyəti belə, gözəl bir nemətdir, elə deyilmi? Demək olar ki, okeanda ölmək və ailəmi itirmək, bu, həqiqətən bir neçə ay ərzində mənə elə bir şəkildə təsir etdi ki, insanların mənə istinad etmələrini, mükafat almağımı, tanınmaq istəyimi itirdim.

Bu sonsuza qədər davam etmədi. Bir anda yenidən iddialı idim və həmkarlarımın məndən sitat gətirməsini istəyirdim və mükafatı almaqdan məmnun idim, amma həmişə ağlımın dərinliyində qalırdı ki, həqiqəti bilirəm. Bilirəm ki, həyatda əsas şey nədir. Bunun hətta Nobel mükafatı olmadığını belə, deməliyəm. Düzdü, bu mənə və bir çox digər insanlara çox xoşbəxtlik verdi, buna görə məni yanlış anlamayın. Mən bunu belə qiymətləndirirəm. Amma ürəyimin dərinliyində bilirəm ki, bu, hamımızın arzuladığı bir şey deyil. Bu, nəfəs almaq qabiliyyətidir, həyatdan zövq almaq qabiliyyətidir, səhərlər günəş doğarkən qəhvə içməkdir. Bunlar həqiqətən vacib olan və bizi xoşbəxt edən şeylərdir. Biz buna açıq olmalıyıq. İndi mənim mesajım budur.

**Oruc MUSTAFAYEV**

IAC 2023 BAKU

## Azərbaycanlı gənclərin Beynəlxalq Astronavtika Konqresinə marağı artır

Azərbaycanın gənc tədqiqatçı və tələbələrinin Beynəlxalq Astronavtika Konqresində aktiv iştirakını təmin etmək məqsədilə "Azərkosmos" tərəfindən "Tələbələr və gənc alimlər" adlı proqram həyata keçirilir. Proqramın məqsədi azərbaycanlı gənclərin konqresə marağını artırmaq, onların aktiv iştirakını təşviq etməklə kosmos elminin və təhsilinin inkişafına töhfə verməkdir.

Proqram çərçivəsində Elm və Təhsil Nazirliyi, həmçinin nazirliyin "SABAH qrupları" layihəsi, Gənclər və İdman Nazirliyi, Azərbaycan Gənclər Fondu və innovasiya mərkəzləri ilə əməkdaşlıq qurulub.

I mərhələdə 14 universitetdən 2200 tələbə üçün konqreslə bağlı infosessiya və silsilə görüşlər keçirilib. 1000-dən çox fəal gənci öz ətrafında birləşdirən 300-ə yaxın tələbə-gənclər təşkilatları ilə də görüşlər təşkil edilib.

Qeyd edək ki, "Qlobal çağırışlar və imkanlar: kosmosa şans verək" mövzusuna həsr olunmuş konqresdə bütün dünyadan, o cümlədən Azərbaycandan olan elm insanları kosmosun imkanlarına həsr olunmuş 189 texniki sessiya və digər tədbirlərdə iştirak edə biləcəklər.

Beynəlxalq Astronavtika Konqresində iştirak üçün aşağıdakı link vasitəsilə qeydiyyatdan keçə bilərsiniz:
*https://www.iac2023.org/registration/*

Konqres haqqında ətraflı məlumatı müvafiq linkdən əldə etmək mümkündür:
*www.iac2023.org*

## Qonaqpərvərlik sahəsində iş axtaran tələbə və məzunlar üçün karyera günü

Dövlət Turizm Agentliyi, Dövlət Məşğulluq Agentliyi və Peşə Təhsili üzrə Dövlət Agentliyinin dəstəyi ilə Azərbaycan Hotel Assosiasiyası tərəfindən qonaqpərvərlik sahəsində iş axtaran tələbə və məzunlar üçün karyera günü təşkil edilib.

Karyera günündə Azərbaycan Hotel Assosiasiyasına üzv olan 46 hotel vakansiya və təcrübə proqramları ilə iştirak edib.

Tədbirdə çıxış edən Dövlət Turizm Agentliyi sədrinin müavini Azadə Hüseynova qurumun tabeliyində olan təhsil müəssisələrində turizm sahəsi ilə bağlı 15-dən çox ixtisasın tədris edildiyini, əsas məqsədin məzunların milli və beynəlxalq əmək bazarında rəqabətqabiliyyətli olması, turizm sahəsi üzrə diplomların dəyərinin artırılmasına nail olmaqdan ibarət olduğunu söyləyib.

A.Hüseynova təqdim edilən vakansiya və təcrübə proqramlarının iş axtaran gənclər üçün faydalı olacağına inandığını, tədbirin turizm sektorunda savadlı və bacarıqlı kadrların sayının artmasına öz töhfəsini verəcəyini bildirib.

Karyera gününə ümumilikdə 21 universitetin və peşə məktəblərinin tələbə və məzunları qatılıbar.

Həmçinin tədbir çərçivəsində qonaqpərvərlik üzrə 5 beynəlxalq ustad dərsi təşkil edilib, Azərbaycan Hotel Assosiasiyasına üzv olan hotellərin təmsilçiləri tərəfindən hotel şöbələri və vəzifələri, işçi iyerarxiyasına virtual tur, qonaqpərvərliyin əsaslarına ilkin giriş, qonaq xidməti sənəti, gənc aşpazlara tövsiyələr və peşə sirləri, həmçinin uğurlu CV təklifləri kimi mövzularda təqdimatlar keçirilib.




# PISA-nın 100 dərsi

## OECD-nin şagird nailiyyətlərinin beynəlxalq qiymətləndirilməsinə dair apardığı tədqiqatın 100 məqamı

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) şagird nailiyyətlərinin beynəlxalq qiymətləndirməsinin (PISA) aparıldığı 10 illik dövrü əhatə edən aşağıdakı nəticələr beynəlxalq tədqiqatdan bəhrələnməli olduğumuz 100 faydalı məqamı özündə əks etdirir və günümüzlə həmahəng səslənir. PISA dərsləri düşüncələr üçün kifayət qədər məlumat verir. Beləliklə, PISA-dan aldığımız 100 dərs:

### Yüksək səmərəli və ya sürətlə inkişaf edən təhsil sistemləri

1. 2000-2009-cu illər arasında orta oxu göstəricilərinin yaxşılaşdığı ölkələrdən çoxu ən aşağı göstəriciləri olan şagirdlərinin bu sahədə əhəmiyyətli irəliləyişlərini qeyd edə bilərlər.
2. Məktəblərin tədris olunan fənlər və şagirdlərin necə qiymətləndirilməsi sahəsində daha çox muxtariyyətə sahib olduğu ölkələrdə təhsilalanlar bir qayda olaraq daha yaxşı oxuyur.
3. Milli rifahın və ya ali təhsil xərclərinin artması şagirdlərin daha yaxşı akademik performansına zəmanət vermir. PISA-da yaxşı nəticələr göstərən məktəb sistemləri bütün şagirdlərin buna nail ola biləcəyinə inanır və onlara bunu etmək imkanı verir.
4. Bəzi ölkələr nümayiş etdirdilər ki, təhsildə bərabərliyin yaxşılaşmasına ümumi göstəricilərin yaxşılaşması ilə eyni vaxtda və nisbətən qısa müddətdə nail olmaq mümkündür.
5. Yüksək bal toplayan ölkələr arasında məktəb fəaliyyətindəki fərqlər, ümumiyyətlə, OECD-nin orta göstəricilərindən daha kiçikdir.
6. Təhsil sahəsində güclü icraçı və uğurlu islahatçılar bütün şagirdlərin potensialına inam, güclü siyasi iradə və bütün maraqlı tərəflərin vəziyyətini yaxşılaşdırmaq üçün ardıcıl və razılaşdırılmış səylər göstərmək qabiliyyəti kimi bəzi ümumi xüsusiyyətlərə malikdirlər.
7. Təhsil resurslarının məktəblər arasında necə bölüşdürülməsi mövcud əlçatan resursların sayı qədər vacibdir
8. 15 yaşlı şagirdləri beynəlxalq arenada yüksək göstəricilərlə çıxış edən ölkələr, bir qayda olaraq, 26-28 yaşlı gəncləri yaxşı nəticələr göstərən ölkələrdir.
9. PISA göstəricilərinin yaxşılaşdırılması coğrafi amil, milli sərvət və ya mədəniyyətlə əlaqəli deyil.
10. Məktəblərdə mövcud olan resursların miqdarı və keyfiyyəti OECD ölkələri üzrə orta hesabla 2003-cü ildən 2012-ci ilə qədər əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.
11. Ölkələrdə şagirdlərin rəqəmsal oxu göstəriciləri ilə rəqəmsal mətnlər üzrə keyfiyyətli axtarış arasında sıx əlaqə mövcuddur.
12. Şagirdlərin müntəzəm olaraq təbiət elmləri dərslərinə daha çox vaxt sərf etdikləri məktəb sistemlərində elm üzrə orta ballar daha yüksəkdir; lakin təhsilalanlar məktəbdən sonra elmin öyrənilməsinə daha çox vaxt sərf etdikdə, elm üzrə orta ballar aşağı olur.
13. Məktəb təhsilinə çıxış imkanlarının genişləndirilməsi, bir qayda olaraq, 15 yaşlılar üçün orta təhsilin keyfiyyəti hesabına baş vermir.
14. Şagirdlərin daha çox akademik davamlı olmaq şanslarına malik olduğu məktəb təhsil sistemlərinin əksəriyyəti bəzi ümumi xüsusiyyətlərə, həmçinin şagirdlərin dərs məşğələlərinə fokuslana biləcəyi yaxşı intizam atmosferinə malikdir, müəllimlər isə yaxşı təlimi təmin edə bilərlər.

### Təhsildə bərabərlik

15. Vaxtilə məktəbəqədər təhsilə qatılmış on beş yaşlı şagirdlərin PISA nəticələri, təhsilin bu səviyyəsini keçməyən uşaqlarla müqayisədə hətta sosial-iqtisadi vəziyyətləri nəzərə alındıqdan sonra da daha yaxşıdır.
16. Məktəbin müəllim heyəti ilə sinifdənkənar məşğələlər bərabərliyin artırılmasına kömək edə bilər, məktəbdə işləməyən kənar müəllimlərlə sinifdənkənar məşğələlər isə şagirdlər arasında bərabərsizliyi daha da dərinləşdirər.
17. Şagirdlərin daha çox qiymətləndirildiyi ölkələrdə ümumi irəliləyiş, bir qayda olaraq, aşağıdır və ictimai mühit təlimin nəticələrinə şagirdlərin daha az qiymətləndirmələrə cəlb olunduğu ölkələrlə müqayisədə daha güclü təsir göstərir.
18. Xüsusi məktəblərin daha çox üstünlük təşkil etdiyi ölkələr PISA-da daha yaxşı nəticə göstərmirlər. Xüsusi məktəblərdə oxuyan şagirdlər dövlət məktəblərində oxuyan şagirdlərə nisbətən PISA-da daha yaxşı çıxış edirlər; lakin özəl məktəblər kimi oxşar sosial-iqtisadi kontekstdə dövlət məktəblərində oxuyan eyni dərəcədə yaxşı nəticə göstərirlər.
19. Valideynləri erkən tədris ilində kitab oxuduqları şagirdlər arasında akademik nailiyyətlərin üstünlüyü ailənin sosial-iqtisadi vəziyyətindən asılı olmayaraq aydın görünür.
20. Dövlət və özəl sektor tərəfindən idarə olunan məktəblər arasında sosial-iqtisadi profillərdəki fərq özəl məktəblərin daha yüksək dövlət maliyyələşməsi əldə etdiyi zaman azalır.
21. Valideynlərin öz uşaqları üçün məktəb seçdiyi və təhsil müəssisələrinin güclü rəqabət apardığı təhsil sistemlərində məktəblər tez-tez daha çox sosial cəhətdən seqreqasiya olunurlar.
22. OECD ölkələrində hər səkkizinci şagird 15 yaşına qədər ən azı bir dəfə qiymətləndirməni təkrarlayıb.
23. 2006-2015 - ci illər ərzində təhsildə bərabərlik PISA-da iştirak edən 11 ölkə və iqtisadiyyatda, orta hesabla, OECD-nin bütün ölkələrində yaxşılaşmışdır.
24. "PISA 2015"-də kənd məktəblərindəki şagirdlərin yalnız 30%-i, OECD ölkələrində şəhər məktəblərindəki şagirdlərin təxminən 50%-i ilə müqayisədə ən azı universitet təhsili almağı gözləyirdi.
25. Yaşayış yerində məktəbə qəbul siyasətinin daha az yayıldığı ölkələrdə, əlverişsiz vəziyyətdə olan şagirdlər, bir qayda olaraq, məhdud sayda məktəblərdə cəmləşirlər.
26. Daha yüksək səviyyəli sosial seqreqasiyaya malik məktəb sistemləri, ümumiyyətlə, öyrənmək üçün daha az bərabər təhsil imkanları təklif edir.

### Oğlan və qızlar arasında fərqlər

27. Çap materiallarının oxunmasında eyni bacarığa malik olan oğlanlar və qızlar arasında birincilər, bir qayda olaraq, rəqəmsal axtarış üzrə daha güclü bacarıqlara malikdir və beləliklə də rəqəmsal oxumada daha yüksək ballar alırlar.
28. OECD ölkələrində orta hesabla qızların yalnız 5%-i mühəndislik və hesablama texnikası sahəsində, oğlanların isə 18%-i bu sahələrdə karyera gözləyirlər.
29. Müəllimlər, bir qayda olaraq, ictimai-iqtisadi vəziyyətdə olan qızlara və şagirdlərə imkansız ailələrdən olan şagirdlərə nisbətən və hətta əgər dərslərin öhdəsindən gələ bilməsələr belə, daha yüksək qiymətlər qoyurlar.
30. Valideynlər böyük ehtimalla gözləyirlər ki, onların qızları yox, oğlanları elm, texnika və ya riyaziyyat sahəsində işləyəcəklər, hətta əgər onların 15 yaşlı oğlanları və qızları riyaziyyat üzrə eyni bir səviyyədə oxusalar belə.
31. Qızlar demək olar ki, oğlanlara nisbətən üç dəfə daha çox həkim, baytar, tibb bacısı və ya başqa tibb işçisi kimi işləməyi nəzərdə tuturlar.
32. Qızların 60%-dən çoxu, oğlanların 50 faizdən azı imtahanlara daha yaxşı hazırlaşmış olmalarına rəğmən güclü narahatlıq keçirdiklərini bildiriblər.
33. Qiymətləndirmədə iştirak edən hər bir ölkə və iqtisadiyyatlarda qızlar problemlərin birgə həllində daha yaxşı nəticələr göstəriblər.
34. PISA-da iştirak edən ölkə və iqtisadiyyatların əksəriyyətində oğlanlar qızlarla müqayisədə təbiət elmlərinin öyrənilməsi vaxtı daha böyük əminlik və geniş elmi mövzulara böyük maraq göstərirlər.

### Güclü və zəif şagirdlər arasında fərqlər

35. Dayanıqlı olan əlverişsiz şagirdlər (sosial-iqtisadi statuslarını nəzərə alaraq məktəbdə gözləniləndən daha yaxşı oxuyurlar) və olmayanlar arasında əsas fərq, dayanıqlı şagirdlərin məktəbdə daha müntəzəm dərslərdə iştirak etmələridir.
36. Əgər əlverişsiz vəziyyətdə olan şagirdlər əlverişli vəziyyətdə olan şagirdlərlə eyni dərəcədə səmərəli tədris strategiyalarından istifadə etsələr, iki qrup arasında məhsuldarlıq fərqləri, demək olar ki, 20% az olardı.
37. Valideynləri peşə ixtisasları üzrə işləyən şagirdlər, adətən riyaziyyatda digər şagirdlərdən üstün olurlar, valideynləri ibtidai peşələr üzrə işləyən şagirdlər isə həmyaşıdlarından geri qalmaq tendensiyasına malikdirlər.
38. İmkanlı və imkansız şagirdlər arasında məktəbəqədər davamiyyət nisbətlərində fərq artır.
39. Sosial-iqtisadi cəhətdən üstün vəziyyətlərdə olan və daha əlverişli məktəblərdə təhsil alan şagirdlər bir qayda olaraq ev tapşırıqlarına daha çox vaxt ayırmağa meyillidirlər.
40. Sosial-iqtisadi cəhətdən üstün olan şagirdlərin təxminən 65%-i OECD ölkələrində orta hesabla kvadrat funksiya anlayışını yaxşı bildiklərini və ya tez-tez eşitdiklərini qeyd ediblər; lakin imkansız şagirdlərin yalnız 43%-i bu barədə məlumatlı olduğunu deyib.
41. Bütün şagirdlərin, o cümlədən ən əlverişsiz təbəqədən olanların internetə asanlıqla çıxışı olsa belə, onlar arasında texnologiyadan necə istifadə etmələrində sosial-iqtisadi vəziyyətə əsaslanan rəqəmsal uçurum davam edir.
42. Əlverişli tədris mühiti və keyfiyyətli resurslara daha çox təminatlı məktəblərdə rast gəlinir ki, bu da onu deməyə əsas verir ki, məktəblər tez-tez gücləndirilir, şagirdlərin ev resursları isə kompensasiya edilmir.
43. PISA 2015-də iştirak edən ölkələrin və iqtisadiyyatların üçdə birindən çoxunda ən əlverişsiz məktəblərin müəllimləri ən üstünlüklü məktəblərdəki müəllimlərlə müqayisədə daha az ixtisaslı və ya daha az təcrübəyə malik idilər.
44. Əlverişli və əlverişsiz şagirdlər arasında elm performansındakı orta fərq təxminən üç illik təhsilə bərabərdir.
45. PISA 2000-də oxumaq üzrə birinci rübdə bal toplayan sosial-iqtisadi cəhətdən zəif olan 15 yaşlı şagirdlərin 25 yaşına qədər universiteti bitirmək ehtimalı 18-34 faiz daha yüksək idi.

### İmmiqrant və qeyri-immiqrant şagirdlər arasındakı fərqlər

46. Əksər ölkələrdə immiqrant şagirdlər yerli şagirdlərdən performans baxımından geri qalırlar; bir çox ölkələrdə fərq əhəmiyyətlidir.
47. Əksər OECD ölkələrində immiqrant şagirdlərlərin digər şagirdlərə nisbətən zəif performansı məktəbdəki sosial-iqtisadi əlverişsizliklə sıx bağlıdır.
48. OECD-nin əksər ölkələrində son vaxtlarda gələn 15 yaşlı immiqrant şagirdlər beş yaşından kiçik yaşda yeni ölkələrinə gələn immiqrant şagirdlərdən daha pis oxuma göstəriciləri nümayiş etdirirlər.
49. Ortaq bir mənşə ölkəsinə aid və bu səbəbdən bir çox mədəni oxşarlığa sahib olan immiqrant şagirdlər, fərqli məktəb sistemlərində çox fərqli yollarla tədrisdə müvəffəq olurlar.
50. İmmiqrant şagirdlər və immiqrant olmayan şagirdlər arasındakı riyaziyyat performansındakı fərq 2003-2012-ci illər arasında orta hesabla azalıb.
51. Mühacirlərin məktəbdəki göstəriciləri ilə onların gənc yetkin təbəqəsi kimi təhsili və əmək bazarı nəticələri arasında güclü əlaqə var.
52. 2015-ci ildə OECD ölkələrində 15 yaşlı şagirdlərin 23%-i xaricdə doğulmuşdur və ya orta hesabla ən azı bir xaricdə doğulmuş valideynləri olmuşdur. Bu pay 2003-cü ildən bəri orta hesabla altı faiz artmışdır.

### Məktəblər, müəllimlər və sinifdəki iqlim

53. Bütün iştirakçı ölkələrdə valideynlər övladı üçün məktəb seçərkən akademik nailiyyətləri yüksək qiymətləndirirlər; lakin onlar çox vaxt məktəbin təhlükəsizliyi və ətraf mühiti və məktəbin reputasiyası ilə bağlı daha çox narahat olurlar.
54. Böyük şəhərlər, ümumiyyətlə, məktəblər üçün təhsil aktivləridir.
55. Əksər ölkələrdə və iqtisadiyyatlarda şəhər yerlərində məktəblərə gedən şagirdlər digər şagirdlərlə müqayisədə daha yüksək səviyyədə fəaliyyət göstərirlər.
56. Müəllimliyi cəlbedici peşəyə çevirmiş ölkələr çox vaxt bunu təkcə maaşla deyil, müəllimliyin statusunu yüksəltməklə, real karyera perspektivləri təklif etməklə və müəllimlərə peşəkar kimi yanaşmaqla həyata keçirmişlər.
57. Müəllimlərin maaşlarının yüksək olduğu ölkələrdə orta hesabla şagirdlərin daha yüksək faizi müəllim kimi işləməyi gözləyir.
58. Qarışıq siniflərdə şagirdləri dəstəkləyən tədris strategiyaları, məsələn, ehtiyac duyduqları zaman şagirdlərə əlavə yardım göstərilməsi şagirdlərin riyaziyyat qabiliyyətinə daha çox inamla əlaqədardır.
59. OECD ölkələrində tam sertifikatlı müəllimlərin nisbəti PISA-da şagird performansı ilə müsbət, lakin cüzi bir əlaqəyə malikdir.
60. Həmkarları ilə əməkdaşlıq edən və ixtisasartırma fəaliyyətlərində iştirak edən müəllimlər heç birini etməyənlərdən daha çox işlərindən məmnundurlar.
61. Daha təcrübəli müəllimləri olan məktəblər bir qayda olaraq, PISA-da daha yaxşı nəticə göstərməyə meyillidirlər və həmçinin öyrənmə üçün daha əlverişli olan sinif mühitinə malikdirlər.
62. Müəllim-tələbə münasibətləri həm riyaziyyat performansı, həm də şagirdlərin xoşbəxtliyi və məktəbə aid olma hissi ilə sıx bağlıdır.
63. Siniflərində intizam problemlərinin az olduğunu bildirən şagirdlər PISA-da sinifdə intizamın olmamasının təhsilə mane olduğunu bildirənlərdən daha yaxşı nəticələr göstəriblər.
64. Nizamlı sinif otaqları məktəbin sosial-iqtisadi profilindən asılı olmayaraq daha yaxşı performansla bağlıdır.
65. Riyaziyyat dərslərinə nə qədər çox vaxt ayrılsa, şagirdlər orta hesabla bir o qədər yaxşı nəticə göstərirlər; lakin onlara dərsdə daha çox tapşırıq vermək çox vaxt təlim nəticələrini yaxşılaşdırmaq üçün kifayət etmir.
66. Elmi-tədqiqat fəaliyyətində iştirak şagirdlər arasında elmə daha müsbət münasibətlə əlaqələndirilir.
67. Əksər ölkələrdə məktəbdə elmlə bağlı dərsdənkənar fəaliyyətlər şagirdin daha yaxşı performansı, şagirdlərin elmə aid tapşırıqların öhdəsindən gəlmək bacarığına daha güclü inamı və elm öyrənməkdən daha çox həzz alması ilə bağlıdır.
68. OECD ölkələrində şagirdlər üçün dərsləri və ya məktəb günlərini qaçırmaq riyaziyyatdan xeyli aşağı ballarla əlaqələndirilir.
69. OECD ölkələrində məktəb direktorları şagirdlərin təhsilinə ən çox mane olan problemlər kimi şagirdlərin dərsdən yayınmasını və işçilərin dəyişikliyə müqavimət göstərməsini göstərmişlər.
70. Orta hesabla OECD ölkələri üzrə şagirdlərin 4% -i döyüldüklərini və təzyiqə məruz qaldıqlarını, 8% -i isə məktəbdə ən azı ayda bir neçə dəfə xoşagəlməz şayiələrin qurbanı olduqlarını bildiriblər.
71. Valideynləri dostları və dostlarının valideynləri haqqında daha çox şey bilən şagirdlər problemlərin birgə həllində daha çox bal toplayıblar, sosial-iqtisadi statusu nəzərə alındıqdan sonra da daha az zorakılıq halları barədə məlumat veriblər.
72. 2015-ci ildə PISA-da iştirak edən bütün ölkələrdə şagirdlərin əksəriyyəti özlərini məktəb icmasına aid hiss etdiklərini bildiriblər. Bununla belə, ölkələrin böyük əksəriyyətində şagirdlərin məktəbə aidiyyət hissi 2003-cü ildən zəifləyib.

### Şagirdlərin bildikləri və edə bildikləri

73. Şagirdlər ekoloji problemlər haqqında məlumatların əksəriyyətini məktəbdən alırlar, onların yalnız az qismi bu problemlər haqqında ekoloji elmlərə dair ayrı-ayrı kurslarda öyrənirlər.
74. Formal orta təhsildən sonrakı təhsilin bəzi formalarında iştirak ardıcıl və əsaslı şəkildə 15-24 yaş arasında oxu bacarıqlarının təkmilləşdirilməsi ilə bağlıdır.
75. Elmdən kifayət qədər biliyə malik olmayan şagirdlər ekoloji problemlərin həlli yollarını tapmaq üçün lazım olan vaxtı ardıcıl olaraq düzgün qiymətləndirmirlər.
76. OECD ölkələri üzrə orta hesabla şagirdlərin təxminən 4%-i oxuma, təbiət elmləri və riyaziyyat sahəsində aparıcı mütəxəssislərdir.
77. Şagirdin əsas məktəb fənlərini yaxşı bilməsi onun (oğlan və ya qız) problemlərin həllində bacarıqlı olması anlamına gəlmir.
78. İştirakçı ölkələr üzrə orta hesabla şagirdlərin 15%-i, ən yaxşı halda, xərcləmə ilə bağlı sadə qərarlar qəbul edə və gündəlik maliyyə sənədlərinin, məsələn, fakturaların məqsədini anlaya bilər.
79. 15 yaşlı yeniyetmələr arasında ən çox yayılmış onlayn fəaliyyətlər əyləncə üçün İnternetə baxmaq və sosial mediada iştirak etməkdir, şagirdlərin 70%-dən çoxu hər gün və ya demək olar ki, hər gün bunlardan hər hansı birini edir.
80. OECD ölkələri üzrə orta hesabla hər dörd şagirddən biri (və ya çoxu) PİSA tərəfindən qiymətləndirilən əsas fənlərdən ən azı birində - oxu, riyaziyyat və elm üzrə bilik səviyyəsinin baza səviyyəsindən aşağı bal toplayır.
81. Öyrənmə strategiyası kimi əzbərçilik sadə tapşırıqlarla bağlı işləyə bilər, lakin mürəkkəb riyaziyyat problemləri ilə qarşılaşdıqda istifadə olunan yeganə strategiyadırsa, onun effektiv olması ehtimalı azdır.
82. 2015-ci ildə ilk dəfə olaraq PISA-da iştirak edənlərin əksəriyyəti test imtahanını kompüterdə veriblər.
83. Problemi əməkdaşlıq yolu ilə həll etmək üçün şagirdlər başqaları ilə ortaq anlaşma qurmağı və davam etdirməyi, problemi həll etmək üçün müvafiq tədbirlər görməyi, komanda qurmağı və davam etdirməyi bacarmalıdırlar.
84. 2012-2015-ci illər arasında 15 yaşlı şagirdlərin internetdə sərf etdikləri vaxt OECD ölkələrində orta hesabla həftədə 21 saatdan 29 saata qədər artıb.
85. Məktəbdən kənarda internetə, söhbətləşməyə və ya sosial mediaya çıxışı olan şagirdlər bu fəaliyyətlərdə iştirak etməyən şagirdlərdən daha yaxşı əməkdaşlıq edir, məktəbdən kənarda video oyunları oynayan şagirdlər isə video oyunları oynamayan şagirdlərdən daha pis əməkdaşlıq edirlər.
86. PISA ölkələrində (Kamboca, Ekvador, Qvatemala, Honduras, Paraqvay, Seneqal və Zambiya) şagirdlərin təxminən 23%-i OECD üzrə orta göstəricilərlə müqayisədə ən aşağı oxuma səviyyəsinə çatırlar.
87. Ətraf mühitə bələd olan şagirdlər Yer kürəsinin gələcəyi ilə bağlı daha bədbindirlər.
88. 2015-ci ildə oğlanlar və zəif oxuyan şagirdlər, elmdə ilkin səviyyədə və ya ondan yuxarı səviyyədə çıxış edən qızlara və şagirdlərə nisbətən havanın çirklənməsi, bitki və heyvanların nəsli kəsilməsi kimi ekoloji problemlərin həlli ilə bağlı daha optimist fikirlərə sahib idilər.

### Şagirdlərin öyrənməyə münasibəti

89. Hər gün zövq üçün gündəlik oxumaq PISA-da daha yaxşı performansla əlaqələndirilir.
90. Təxminən hər dörd şagirddən biri rəsmi təhsilini orta məktəb səviyyəsində bitirməyi gözləyir, buna görə də işə və yetkinliyə rəvan keçid üçün bacarıqlara ehtiyac duyur.
91. Şagirdlərin əksəriyyəti məktəbdə öyrəndiklərinin gələcəkləri üçün faydalı olduğunu düşünür.
92. Şagirdlər öyrənməyə səy göstərmələrinin gələcəkdə fərq yaradacağına inandıqda, riyaziyyatda əhəmiyyətli dərəcədə yüksək bal toplayırlar.
93. OECD ölkələri üçün orta hesabla, riyaziyyatı öyrənməyə yüksək həvəs göstərən şagirdlər, bunun gələcəkdə onlara kömək edəcəyinə inandıqları üçün riyaziyyatda yüksək motivasiyası olmayan şagirdlərdən daha yaxşı bal toplayırlar.
94. Şagirdin məktəb yoldaşları riyaziyyatdan nə qədər yaxşı nəticə göstərsələr, şagirdin riyaziyyata qarşı həvəsi bir o qədər çox olar.
95. Şagirdlərin tətbiqi riyaziyyat problemlərini həll etmək bacarığında özlərini nə qədər inamlı hiss etmələri ilə dərsdə oxşar problemlərlə üzləşib-üzləşməmələri arasında sıx əlaqə var.
96. 2012-ci ildə aşağı akademik göstəricilərə sahib olan şagirdlərin təxminən 32% -i, bu barədə məlumat verən daha yaxşı akademik göstəricilərə sahib olan şagirdlərin yalnız 13%-i ilə müqayisədə problemləri həll etməkdən asanlıqla imtina etdiklərini söyləyib.
97. Mövcud məlumatlara malik 13 ölkədən və iqtisadiyyatdan 10-da pul məsələlərini valideynlərlə heç olmasa bəzən müzakirə etmək bu mövzunu heç vaxt müzakirə etməməkdən daha yüksək maliyyə savadlılığı ilə əlaqələndirilir.
98. Testlə bağlı narahatlıq geniş yayılıb: şagirdlərin təxminən 60%-i imtahan verməkdən, 60%-dən çoxu isə zəif qiymət almaqdan narahatdır.
99. Aktiv fiziki fəaliyyət şagirdlərin rifahına müsbət təsir göstərir.
100. Motivasiya, xüsusilə də xarici stimullara cavab olduqda, narahatlıq hissi ilə müşayiət olunur.

**Oruc MUSTAFAYEV**



Kəlbəcər rayonu 37 nömrəli tam orta məktəbin psixoloqu Cəmilə İsbəndiyarovanın təşkilatçılığı ilə orta məktəbin yuxarı sinif şagirdləri arasında gənc nəslin sağlam həyat tərzi, pis vərdişlərdən qorunması, narkotik maddələrin mənfi fəsadları ilə bağlı maarifləndirici məşğələ keçirilib.

Rayon polis idarəsinin əməkdaşlarının, orta məktəbin yuxarı siniflərinin şagirdlərinin, eləcə də müəllim və valideynlərin iştirakı ilə keçirilən məşğələdə narkomaniya ilə mübarizənin sağlam cəmiyyətin formalaşması baxımından əsas məqsəd və vəzifələrdən olduğu diqqətə çatdırılıb.

## Narkomaniyanın insan sağlamlığına mənfi fəsadları ilə bağlı maarifləndirici məşğələ

# Sağlamlığımızı qoruyaq – narkomaniyaya yox deyək!

Tədbirdə yeniyetməlik dövrünə qədəm qoymuş yuxarı sinif şagirdlərinə “ağ ölüm”ün insan həyatını necə məhv etməsi haqqında geniş məlumatlar verilib, tütün məmulatlarına, siqaretə, elektron siqaretə, qəlyana alışmağın mənfi bir vərdiş olması və ömürboyu insanın sağlamlığında sağalmaz fəsadlar yaratması real faktlarla çatdırılıb.

Çıxışlarda Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı”ndan bəhs edilərək, dövlətimizin bu sahədə apardığı davamlı işlər tədbir iştirakçılarının nəzərinə çatdırılıb. Qeyd olunub ki, adıçəkilən Proqramdan irəli gələn məsələlərin icrasının təmin edilməsi məqsədilə Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi və “Ümidli Gələcək” Gənclər İctimai Birliyinin birgə səyləri nəticəsində hazırlanmış “Ümumi təhsil müəssisələrinin VIII-IX siniflərində reproduktiv sağlamlıq mövzusunda məşğələlər üzrə metodiki vəsait”, eyni zamanda digər müvafiq sənədlərdə öz əksini tapan tövsiyələrə uyğun olaraq, məktəbimizdə uyuşdurucu vasitələr, narkotikə qarşı maarifləndirici təbliğat tədbirləri davamlı şəkildə aparılır.

Tədbirdə tanınmış şəxslərin narkotiklərin fəsadları ilə çağırışlarını əks etdirən videoçarx nümayiş olunub.

Daha sonra məşğələ iştirakçılarına narkotik, ondan asılılıq nədir, törətdiyi fəsadlar barədə ətraflı məlumatlar verilib, bu məsələlərlə bağlı geniş fikir mübadiləsi aparılıb.

Tədbirdə daha sonra məktəbin direktoru Nemət Həsənov, polis əməkdaşları, valideynlər mövzuyla bağlı fikirlərini bölüşüblər, narkomaniyaya qarşı ictimai mübarizənin vacibliyini vurğulayıblar.

Sağlamlığımızı qoruyaq - narkomaniyaya yox deyək!

**Cəmilə İSBƏNDİYAROVA,**
*Kəlbəcər rayonu 37 nömrəli tam orta məktəbin psixoloqu, filologiya üzrə fəlsəfə doktoru*


## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti 23 L, 5-ci mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 3892 **Sifariş** 1007

**Məsul növbətçi:** O.Mustafayev


# Etibarsız sayılır

**Bakı şəhər** 95 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Fərəcova Aysel Zilfi qızına verilmiş B-129952 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki Azərbaycan Türk Özəl Liseyi** tərəfindən 2005-ci ildə Əmrahov Aqil Məzahir oğluna verilmiş B-099922 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**14 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2002-ci ildə Salmanov Qəzənfər Mais oğluna verilmiş AB-056953 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 1999-cu ildə Mustafa Okattık Mustafa oğluna verilmiş A-012774 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Balakən rayon** Nizami adına şəhər 1 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Ağcayeva Cavahir Eldar qızına verilmiş A-221036 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Bədən Tərbiyəsi və İdman Kolleci** tərəfindən 2006-cı ildə Əhmədova Samirə Eminovnaya verilmiş BB-II-029499 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** 47 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Qarayev Murad Sərvan oğluna verilmiş E-244343 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Samux rayon** Alıuşağı kənd tam orta məktəbi 2020-ci ildə bitirmiş Namazov Alim Anar oğluna verilmiş E-295573 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 24 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Həmzəyev Raul Cəlal oğluna verilmiş A-362990 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 106 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Daşdəmirov Kamran Zahid oğluna verilmiş A-189437 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli şəhər** 1 nömrəli məktəb-liseyi 2008-ci ildə bitirmiş Murtuzzadə Elsevər Malik oğluna verilmiş B-505486 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay şəhər** 3 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Məhərrəmov Kamran Məhərrəm oğluna verilmiş B-297265 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan şəhər** 3 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Fərzəliyeva Lətifə Azər qızına verilmiş E-192601 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Kərgəlan kənd tam orta məktəbi 2005-ci ildə bitirmiş Rəhmətov Cavid Qurbət oğluna verilmiş B-153453 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Danyeri kənd tam orta məktəbi 2009-cu ildə bitirmiş Məmmədzadə Sevinc Bahaddin qızına verilmiş B-582311 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dəniz Akademiyası** tərəfindən 2018-ci ildə Fətəliyev Kənan Qurban oğluna verilmiş C-003526 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Balakən rayon** Nizami adına şəhər 1 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Həsənzadə Elvin Vidadi oğluna verilmiş A-165388 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ali İctimai Siyasi Kolleci** tərəfindən 1999-cu ildə Quliyev Rəşad Vahid oğluna verilmiş A-036568 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** Mollaməhərrəmli kənd tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Məmmədova Gülyanaq Əhliman qızına verilmiş C-370105 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 2 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Ağayeva Nərmin Vilayət qızına verilmiş A-233203 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar Peşə Liseyi** tərəfindən 1998-ci ildə Mirzəyev Qasım Qaraxan oğluna verilmiş AB-014269 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Sağlamlıq İmkanları məhdud Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 4 nömrəli Respublika xüsusi internat məktəbini** 2006-cı ildə bitirmiş Allahverdiyev Elvin Teyyub oğluna verilmiş D-001835 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Qıraq Kəsəmən kənd tam orta məktəbi 2000-ci ildə bitirmiş Əhmədova Nigar Şahin qızına verilmiş A-414902 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Balakən rayon** Sarıbulaq kənd tam orta məktəbi 2019-cu ildə bitirmiş Qazıyev Vüsal Şamil oğluna verilmiş C-291583 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala şəhər** 1 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Cavadov Fərid Pərviz oğluna verilmiş A-581099 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli rayon** Məmmədli kənd tam orta məktəbi 1992-ci ildə bitirmiş Abbasov Həsən Yengibar oğluna verilmiş A-028389 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Qasımlı kənd tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Məmmədova Yeganə Arif qızına verilmiş A-509627 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** I-Nügədi kənd 1 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Xalinbəyova Aygül Fayiq qızına verilmiş B-310601 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Universiteti** tərəfindən 2003-cü ildə Həsənov Şaiq Eldar oğluna verilmiş A-132601 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2015-ci ildə Həsənli Siruz Rafiq oğluna verilmiş A-059464 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Xocavənd rayon** Salakətin kənd tam orta məktəbi 2020-ci ildə bitirmiş Şirinov Əli Elburus oğluna verilmiş E-337208 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Yəhərçi Qazaxlar kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Əhmədova (Rzayeva) Aysel Arif qızına verilmiş B-093518 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Borsunlu kənd tam orta məktəbi 2017-ci ildə bitirmiş Səfərov İslam Şöhrəddin oğluna verilmiş E-029256 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** İsmətli kənd tam orta məktəbi 2009-cu ildə bitirmiş Eyvazlı Zülfü Qismət oğluna verilmiş B-653483 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Xəlilabad kənd tam orta məktəbi 2001-ci ildə bitirmiş Rzayev Müşfiq Gənci oğluna verilmiş A-517837 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 34 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Ramazanov Əhməd İbrahimxəlil oğluna verilmiş A-528655 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Aşağı Zeyid kənd tam orta məktəbi 1997-ci ildə bitirmiş Məmmədov Habil Ağasəlim oğluna verilmiş A-038891 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**1 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2001-ci ildə Quliyev Emin Fəxrəddin oğluna verilmiş AB-053554 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci** tərəfindən 2014-cü ildə Əsədov İsmayıl Bayram oğluna verilmiş AA-049788 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Nehrəm kənd 1 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Əliyev Səxavət İlham oğluna verilmiş A-054735 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Tibb Kolleci** tərəfindən 2019-cu ildə Qasımov Eşqin Coşqun oğluna verilmiş AA-123431 nömrəli subbakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universitetini** 2016-cı ildə bitirmiş Yaqubova Olesya Marikovnaya 2017-ci ildə verilmiş A -107943 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universiteti** tərəfindən 2008-ci ildə Hacıyeva Aygün Azad qızına verilmiş B-130789 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Viləş kənd tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Ağayeva Aygün Qabil qızına verilmiş A-341689 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Tərtər rayon** Ələsgərli kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Şahbazova Natiqə Elman qızına verilmiş B-039074 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir şəhər** 5 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Həbibova Könül Camo qızına verilmiş E-400809 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Sığırlı kənd tam orta məktəbi 2019-cu ildə bitirmiş Nəbiyev Röyal Hilal oğluna verilmiş E-238281 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Çiləgir kənd tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Tahirova Fəridə Arif qızına verilmiş A-478367 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Ənig kənd tam orta məktəbi 2008-ci ildə bitirmiş Sadirov Sərvət Səfalı oğluna verilmiş B-567970 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar şəhər** 2 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Babayeva Milana Kamilovnaya verilmiş A-154807 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Aşağı Ləyər kənd tam orta məktəbi 2012-ci ildə bitirmiş Məmmədov Elnur Əhməd oğluna verilmiş A-155506 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 219 nömrəli evdə tam orta məktəbi 2010-cu ildə bitirmiş Hüseynov Vaqif Ramiz oğluna verilmiş B-745338 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Tibb Kolleci** tərəfindən 2019-cu ildə Yusifova Güney Yusif qızına verilmiş BB-II-090436 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2011-ci ildə Məmmədov Aslan Rafət oğluna verilmiş B-210067 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Milli Konservatoriyası** tərəfindən 2007-ci ildə Şıxəliyeva Şəbnəm Müsənnif qızına verilmiş B-080797 nömrəli fərqlənmə bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** Kötüklü kənd tam orta məktəbi 2010-cu ildə bitirmiş Nəbiyeva Arzu İkram qızına verilmiş B-725242 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** Şərəfxanlı kənd tam orta məktəbi 2005-ci ildə bitirmiş Xudiyev İlqar Şahmar oğluna verilmiş B-208701 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası** tərəfindən 2019-cu ildə Yunisli Kəlbiəli Zöhrab oğluna verilmiş A-154352 nömrəli fərqlənmə bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 14 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Mövlayev Samir Maksim oğluna verilmiş A-685487 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 18 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Xəlilova Nurlana Tahir qızına verilmiş A-450674 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 1 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Qurbanov İlkin Müşviq oğluna verilmiş E-533747 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 14 nömrəli tam orta məktəbin IX sinfini 1995-ci ildə bitimiş Süleymanova Pərvanə Əhməd qızına verilmiş Ə-1156 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 10 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Əsgərli Şubay Gündüz oğluna verilmiş B-694537 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 13 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Vahidzadə Yaşar Qurban oğluna verilmiş E-168876 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 18 nömrəli tam orta məktəbin IX sinfini 2014-cü ildə bitirmiş Mustafayev Sənan Fərman oğluna verilmiş A-396213 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 16 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Səfərova Sevinc Səfər qızına verilmiş A-011459 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** Texniki-humanitar liseyi 2021-ci ildə bitirmiş Yusifli Nadir Anar oğluna verilmiş E-421173 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 7 nömrəli tam orta məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Kərimova Gülnur Çingiz qızına verilmiş 406 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 4 nömrəli tam orta məktəbin IX sinfini 1989-cu ildə bitirmiş Məmmədov Ehtiram Çingiz oğluna verilmiş A-451151 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 7 nömrəli Orta Texniki Peşə Məktəbi (indiki Sənaye və Yüksək Texnologiyalar üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 1994-cü ildə Əliyev Şahin Vahid oğluna verilmiş З-0955804 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Hacıqabul rayon** Atbulaq kənd tam orta məktəbi 1999-cu ildə bitirmiş Həşimova Məhrubə Əlisahib qızına verilmiş A-389525 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Odlar Yurdu Universiteti** tərərfindən 2009-cu ildə Balakişiyeva Şəhanə İsax qızına verilmiş BB-I-011434 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 18 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Fərəcova Günel Vaqif qızına verilmiş B-119692 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş rayon** Yuxarı Ləki kənd tam orta məktəbi 2005-ci ildə bitirmiş Musayeva (Hacıyeva) Səadət Məhəmməd qızına verilmiş B-144758 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Əliabad qəsəbə 4 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Əliyev Bəkir Abid oğluna verilmiş A-124227 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** 2 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş İsmayılova Nəzrin Fərhad qızına verilmiş B-240575 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan şəhər** 3 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş İsmayıllı Nəcməddin Vüqar oğluna verilmiş A-536998 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 10 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Rzayev Ramal İbrahim oğluna verilmiş A-369639 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 288 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Adıgözəlova (Məmmədova) Məsmə Zakir qızına verilmiş B-342157 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qazax şəhər** 4 nömrəli tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş İsmayılov Ayaz İsmayıl oğluna verilmiş A-095484 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Binə Xocavar kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Məlikov Ehtiram İsmayıl oğluna verilmiş B-040811 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**12 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2015-ci ildə Ağayev Mirmehdi Mirkərimoviçə verilmiş AA-060523 nömrəli diplom və A-391927 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Banbaşı kənd tam orta məktəbi (qiyabi) 1989-cu ildə bitirmiş Əmrahova (Adışova) Gülşən Əli qızına verilmiş A-558924 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Viləş kənd tam orta məktəbi 1999-cu ildə bitirmiş İsmayılova (Hüseynova) Sevinc Boris qızına verilmiş A-374534 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

# 22 APREL – YER GÜNÜ




“Mən 1993-cü ildə Bakıya gələrkən, bizim əkdiyimiz, becərdiyimiz bəzi ağacların kəsilməsini görərkən, elə bildim ki, məni yaralayıblar. Mən dəfələrlə demişəm, bir də deyirəm, kim hansı bir sağlam ağacı kəsirsə, hesab edin ki, o, mənim qolumu, barmaqlarımı kəsir.... İnsan qurmalıdır, yaratmalıdır... hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir. Əgər kimsə sağlam ağacı kəsirsə, o, nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o, öz ailəsinə, özü-özünə xəyanət edir. Ona görə də siz hər bir ağacı qorumalısınız, hər bir ağacın qorunması uğrunda mübarizə aparmalısınız...”

**Heydər ƏLİYEV, Ümummilli Lider**

## Hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir

# Planetimizi qoruyaraq



Dünyamızı dəyişmək üçün ən güclü və təsirli vasitə təhsildir. Təhsil vasitəsilə planetimizi daha təmiz və sağlıqlı edə, dayanıqlı inkişafa nail ola və Yer əmanətini gələcək nəsillərə ötürə bilərik. Şagirdlərimizdə ətraf mühitə qarşı şüurlu münasibət formalaşdırmaq milli kurikulumun və dövlətimizin təhsil siyasətinin prioritet məsələlərindəndir. Ekoloji problemlər elə ciddidir ki, hər bir cəmiyyət üzvünün məsuliyyətli davranmasını tələb edir.

## Təbiətə düzgün münasibətin formalaşmasında ekoloji təhsilin rolu

Ekoloji problemlərə düzgün yanaşma cəmiyyətimizin köklü maariflənməsini tələb edir. Davamlı gələcək naminə hamımız birləşərək bu problemlərin aradan qaldırılmasına yardım etməliyik. Bütün dünyada olduğu kimi, Azərbaycan Respublikasında da ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə edilməsi sahəsinə böyük diqqət yetirilir. Respublikamızda bir çox normativ sənədlər, dövlət proqramları hazırlanmış və genişmiqyaslı tədbirlər görülməkdədir. Heydər Əliyev Fondu və İDEA İctimai Birliyinin təşəbbüsü ilə Azərbaycanın təbiətinin qorunmasına yönələn çoxsaylı layihələr həyata keçirilmişdir. Ölkəmiz iqtisadi cəhətdən inkişaf etdikcə ekoloji problemlərin həllinə diqqət daha da artır. Azərbaycan beynəlxalq aləmə inteqrasiya edir, ətraf mühitin qorunması üzrə konvensiyalara qoşulur və üzərinə öhdəliklər götürür. İDEA İctimai Birliyinin təşəbbüsü ilə 2014-cü ildə Qafqazın biomüxtəlifliyi üzrə beynəlxalq sammit keçirilmiş və bu regionda Qafqaz leopardlarının qorunması məsələsini gündəmə gətirmişdir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Heydər Əliyev Fondunun dəstəyi ilə biomüxtəlifliyin qorunmasına yönələn “Azərbaycan Respublikası ərazisində ceyranların mühafizəsi, reintroduksiyası və təbii areallarının yenidən bərpası” layihəsi həyata keçirilmişdir. Dövlətimiz Xəzər dənizinin çirklənməsinin aradan qaldırılması istiqamətində də mühüm addımlar atmaqdadır. Ölkəmizin ərazisində yüzlərlə hektar yaşıllıq sahəsi salınmış, damcı suvarma sistemləri yaradılmış, tullantıların idarə edilməsi sahəsində mühüm işlər görülmüşdür. Neftlə çirklənmiş torpaqların təmizlənməsi və deqradasiyasının qarşısının alınması istiqamətində mühüm addımlar atılmışdır.

Həyati əhəmiyyət daşıyan bu tədbirlərdə cəmiyyətimizin ümumi işə dəstək verməsi çox zəruridir. Gənclərin bu sahədə məqsədəuyğun maarifləndirilməsi işi təbii olaraq təhsilimizin və təhsilverənlərimizin üzərinə düşür. Ətraf mühit təhsili anlayışı Birləşmiş Millətlər Təşkilatının 1972-ci ildə keçirilmiş konfransından qaynaqlanmışdır. Bu konfrans zamanı üzv ölkələr qlobal ekoloji problemlər ətrafında fikir mübadiləsi aparmışlar. Qəbul edilmiş BMT sənədinə görə, Ətraf mühit təhsilinin aşağıdakı məqsədləri müəyyən edilmişdir:

* *Ətraf mühit barədə məlumatlılıq.*
* *Ətraf mühit problemlərində insan faktoru.*
* *Ətraf mühit problemlərinə düzgün münasibət.*
* *Ətraf mühit problemlərinə qarşı dayanma bacarıqları.*
* *Ətraf mühit problemlərinin həllində iştirak.*

Bizi əhatə edən təbiətə düzgün münasibətin formalaşmasında ekoloji təhsilin rolu əvəzsizdir və gənclərimizdə ekoloji şüurun formalaşdırılması 21-ci əsrin vacib tələbidir. Çevrəmizə şüurlu münasibət formalaşdırmalı və üzləşdiyimiz problemlərin ciddiliyini şagirdlərimizə anlatmalıyıq. Dünya praktikasında təklif edilən həll variantları ilə onları tanış etməli, özlərinin də kreativ həll yolları irəli sürmələrinə istiqamət verməliyik və bununla da biz dövlətimizin təhsil siyasətinin mühüm komponentini həyata keçirmiş oları. Ətraf mühitə düzgün münasibət formalaşdırılması ümumilikdə təhsilimizin ana xəttini təşkil edir və o, hər hansı bir fənn çərçivəsinə sığışmayıb inteqrativ yanaşma tələb edir.



Ətraf mühitin qlobal problemləri mövzusunu tədris edərkən Məzmun Əsaslı Təlimdən yararlanıram. Bu təlim üsulunda xarici dil vahidləri mənalı məzmun fonunda mənimsənilir. Məzmunun maraqlı olması şagirdlərin motivasiyasını yüksəldir, onlar aldıqları məlumatı bir-birlərilə mübadilə edir, qəbul etdikləri informasiyanın mahiyyətinə vararaq linqvistik materialı daha asanlıqla və hiss olunmadan mənimsəyirlər və beləliklə, onlar ənənəvi əzbərçilikdən aralanırlar. Onlar ekoloji məfhumları adlandırır, onların xüsusiyyətlərini sadalayır, fikir yürütməyə can ataraq hədəf dildə cümlələr qururlar. Təbiətin mühafizəsi üçün təkliflər irəli sürür və hərəkət planları hazırlayırlar. Onlarda tənqidi düşünmə və problem həlletmə bacarıqları formalaşır. Məzmun əsaslı təlim şagirdlərin bilik və elmi mühakimə bacarıqlarını artırır, ümumilikdə onların dünyagörüşlərinin formalaşmasına yol açır. Ekoloji problemlərdən bəhs edən qəzet və jurnal məqalələri, internet resursları, videomateriallar, hekayələr, mahnılar dil müəlliminin köməyinə gələn vasitələrdir.

Şagirdlər onlara təqdim olunan məlumatı araşdırarkən onlarda tənqidi düşüncə və problem həlletmə bacarıqları formalaşır. Şagirdlərimizin qarşısına belə suallar qoya bilərik:

* *Ozon təbəqəsinin zəifləməsi nə ilə nəticələnə bilər?*
* *Antarktika buzlaqlarının əriməsi nəyə aparıb çıxarar?*
* *Qlobal istiləşmənin səbəbləri nələrdir?*
* *Tükənən və tükənməyən enerji mənbələri hansılardır?*
* *Azaltma, Təkrar istifadə və Təkrar istehsal nə deməkdir?*
* *Biomüxtəlifliyi hansı tədbirlərlə qoruya bilərik?*
* *Ətraf mühitə dost nəqliyyat vasitələri hansılardır?*
* *Məktəb icmamızın ətraf mühitə dost olmasını necə təmin edə bilərik?*

Şagirdlərinizin bəzən sinif otaqlarını tərk edərək təbiətə çıxmaları, meşə gəzintisi, ekskursiyalar, təbiət və mühit araşdırması ilə məşğul olmaları çox vacib şərtdir. Təbiətlə canlı təmas zamanı şagirdlər bilik və bacarıqlarını artırmaq üçün lazımi şərait əldə edirlər və planetimizin gələcəyi üçün məsuliyyət hissi formalaşdırırlar. Təbiət zəngin bilik və təcrübə mənbəyi kimi istifadə edilir. Bundan başqa şagirdlər məktəbyanı ərazilərin plastik tullantılardan təmizlənməsi işinə, yaşıllaşdırma aksiyasına və s. cəlb oluna bilərlər. Ətraf mühitin qorunması barədə yazı müsabiqəsi, əl işləri nümayişi və s. şagirdlərimizdə ekoloji məsuliyyət hissinin formalaşdırılmasına xidmət edə bilər. Məktəbə piyada və ya velosipedlə getməyin əhəmiyyəti, kağız istifadəsini azaltmaq, elektrik enerjisinə, suya və digər resurslara qənaət etməyin zəruri olduğu şagirdlərə aşılanmalıdır. Gənc nəsildə qidalanmaya düzgün münasibət yaratmalı və ərzaq israfının yolverilməz olduğu barədə onları maarifləndirməliyik. 22 Aprel Yer Günü və onun əhəmiyyəti barədə onlarla müzakirələr aparmaq məqsədəuyğundur. Şagirdlər öz yaşadıqları ilə yerin hansı vasitələrlə və necə çirklənməsini aşkar etmə barədə layihə tapşırığına cəlb oluna bilərlər. “Təmiz Təbiət” adlı rəsm müsabiqəsində iştirak edə bilərlər. Cəmiyyətimizin hər bir üzvü təbiətdə qoyduğu karbon izini kiçiltməyə çalışmalıdır.

Ətraf mühit təhsili inteqrativ xarakter daşıyıb coğrafiya, kimya, həyat bilgisi, ana dili, xarici dillər, biologiya və s. kimi fənlərin tədrisinə inteqrasiya edilə bilər.

Bu dəfə biz də Sabirabad şəhər Nizami Gəncəvi adına 5 nömrəli tam orta məktəbdə təmiz ətraf mühit mövzusunu tədris edərkən ingilis dili fənni ilə coğrafiya fənni arasında körpü qurmağa çalışdıq və məktəbimizin coğrafiya müəllimi Milyanə Vələdova ilə dərslərə birgə girdik. Çalışdıq ki, şagirdlər ətraflı məlumatlansınlar və problemlərə kreativ yanaşsınlar. Ətraf mühit lüğətini ingilis dilində təqdim etdik, izahat və interpretasiyalarda həm ana dili, həm də ingilis dilindən istifadə etdik. Birlikdə məktəb bağımızın, ətraf ərazilərin plastik tullantılardan təmizlənməsi tədbirini həyata keçirdik. “Təmiz Yer planeti” mövzusunda yazı müsabiqəsi təşkil etdik. Çevrəmizin hansı tullantılarla çirkləndiyini müəyyən etmək üçün mühit araşdırması təşkil etdik. Mühit araşdırması zamanı Milyanə müəllim şagirdlərə elmi izahatlar verərək onların elmi dünyagörüşlərinin formalaşmasına dəstək oldu. Şagirdlərimiz “Yaşıl Plan” tərtib edərək öz çevrələrinə qarşı necə davranacaqlarına qərar verdilər. Ümumilikdə şagirdlər dərslərdən həqiqi zövq aldılar və motivasiya nümayiş etdirdilər. Çevrəmizdən zəngin öyrətmə vasitəsi kimi istifadə etdik.

İngilis dilinin qlobal dil olması danılmaz bir faktdır və bu dil təlimi vasitəsilə Yer planetimizin problemlərini ortaya gətirə və bütün dil öyrənənləri vahid və müqəddəs məqsəd ətrafında birləşdirə bilərik.

**Ellada MİRZAYEVA,**
*Sabirabad şəhər Nizami Gəncəvi adına 5 nömrəli tam orta məktəbin ingilis dili müəllimi*